Avropada Təhlükəsizlik və
Əməkdaşlıq Təşkilatı
Bakı Ofisi

# AZƏRBAYCANDA MƏHKƏMƏ PROSESLƏRİNİN MONİTORİNQİ

## 2011-ci il

© ATƏT-in Bakı Ofisi

## Mündəricat


**I. Minnətdarlıq** ........ 3
**II. Qısaldılmış sözlərin siyahısı** ........ 4
**III. Cədvəllərin siyahısı** ........ 5

**1. Giriş** ........ 6

**2. Əhatə dairəsi və metodologiya** ........ 8

**3. Ədliyyə sektorunun inkişafı** ........ 19

**4. Nəticələr** ........ 21

i) İşin müstəqil və qərəzsiz məhkəmə tərəfindən araşdırılması hüququ ........ 22

ii) Azadlıq və şəxsi toxunulmazlıq hüququ ........ 23

iii) Vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququ ........ 30
- Hüquqi yardıma çatımlıq ........ 32
- Dövlət tərəfindən təyin olunmuş vəkillərin göstərdiyi hüquqi yardımın keyfiyyəti ........ 38

iv) Tərəflərin bərabərliyi ........ 39
- Təqsirləndirilən şəxsin onun əleyhinə ifadə vermiş şahidləri dindirmək hüququ ........ 40
- Müdafiəyə hazırlaşmaq üçün yetərli vaxt və şəraitlə təmin olunmaq hüququ ........ 40

v) Digər seçilmiş ədalətli məhkəmə araşdırması təminatlarına əməl edilməsi ........ 41
- Açıq məhkəmə araşdırması hüququ ........ 41
- Tərcüməçi köməyindən pulsuz istifadə etmək hüququ ........ 42
- Öz əleyhinə ifadə verməmək hüququ və pis rəftara dair şikayətlərin araşdırılması ........ 42
- Əsaslandırılmış qərar almaq hüququ ........ 44

**5. Tövsiyələr** ........ 46

**IV. Əlavə: ATƏT-in müvafiq öhdəlikləri** ........ 50

# I. Minnətdarlıq

ATƏT-in Bakı Ofisi ("Ofis") 2011-ci ilin yanvar ayından dekabr ayınadək "2011-ci il üzrə Məhkəmə Proseslərinin Monitorinqi Hesabatı"nın ("Hesabat"-ın) hazırlanmasında iştirak edən bütün şəxslərə, o cümlədən dövlət orqanları, Vəkillər Kollegiyası, Prokurorluq, Məhkəmə-Hüquq Şurası, vətəndaş cəmiyyəti və məhkəmə orqanlarının nümayəndələrinə öz minnətdarlığını bildirir.

Cənab Əlövsət Əliyevin rəhbərlik etdiyi yerli təşkilat "Tender Monitorinq Mərkəzi" Ofisin İcraçı Tərəfdaşı ("İT") qismində "2011-ci il üzrə Məhkəmə Proseslərinin Monitorinqi Proqramı"nı ("Proqram") birbaşa icra edib və Proqramın Layihə Qrupuna, o cümlədən 16 məhkəmə müşahidəçisinə və proqramın iki koordinatoruna, xanım Nigar Hüseynova və xanım Leyla Mədətliyə yardım edib. İcraçı tərəfdaş, xanım Qumral Aslanova və xanım Nataşa Rasiçin daxil olduğu Qanunun Aliliyi və İnsan Hüquqları Şöbəsinin Məhkəmə Monitorinqi Qrupu ilə sıx məsləhətləşmə şəraitində və həmin şöbənin rəhbəri, xanım Monika Martinezin ümumi nəzarəti ilə hesabat dövrü ərzində izlənilən məhkəmə proseslərindən faktiki məlumatların yığılmasını əlaqələndirirdi. Həm Layihə Qrupu, həm də Ofisin Məhkəmə Monitorinqi Qrupu proqram fəaliyyətlərini ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) məhkəmə proseslərinin monitorinqi metodologiyasına uyğun icra ediblər.[1]

Ofisin Qanunun Aliliyi və İnsan Hüquqları Şöbəsi (Şöbə) Proqramı Ədliyyə Nazirliyi (ƏN) və digər maraqlı tərəflərlə sıx əməkdaşlıq şəraitində icra edib. Xüsusilə də Ofisin ƏN ilə məsləhətləşmələr əsasında formalaşdırdığı Məhkəmə Proseslərinin Monitorinqi üzrə İşçi Qrupunun köməyi Hesabatın məzmununu əhəmiyyətli dərəcədə artırıb. Beləliklə, Ofis, Proqramın nəticələri və tövsiyələrinə dair məhsuldar və interaktiv müzakirələrin keçirilməsinə şərait yaratdığına görə Məhkəmə Proseslərinin monitorinqi üzrə İşçi qrupuna[2] bir daha minnətdar olduğunu bildirir.

Bundan əlavə, Ofis səxavətli büdcədənkənar yardıma və Proqrama verilən davamlı dəstəyə görə Finlandiya və Norveç hökumətlərinə minnətdardır.

[1] DTİHB *Məhkəmə Proseslərinin Monitorinqi: Praktiki vəsait,* 2008-ci il, bax: http://www.osce.org/odihr/item 11 30849.html

[2] Məhkəmə Proseslərinin Monitorinqi üzrə İşçi Qrupuna ƏN, Məhkəmə-Hüquq Şurası, Baş Prokurorluq, Vəkillər Kollegiyasının nümayəndələri, hakim və Ofisin Məhkəmə Proseslərinin Monitorinqi qrupunun üzvləri daxildir.

## II. Qısaldılmış sözlərin siyahısı

| | |
|---|---|
| CPM | Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi |
| CM | Azərbaycan Respublikasının Cinayət Məcəlləsi |
| AŞ | Avropa Şurası |
| AİHK | İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası |
| AİHM | Avropa İnsan Hüquqları Məhkəməsi |
| İQAK | İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınmasına dair Avropa Konvensiyası |
| MSHBP | BMT-nin Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktı |
| İT | İcraçı Tərəfdaş |
| MHŞ | Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası |
| HRM | Hüquq Resurs Mərkəzi |
| ƏN | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi |
| DTİHB | ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu |
| Ofis | ATƏT-in Bakı Ofisi |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| PR | Prokurorluq |
| HA şöbəsi | ATƏT-in Bakı Ofisinin Hüququn Aliliyi və İnsan Hüquqları şöbəsi |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| ÜİHB | Ümumdünya İnsan Hüquqları Bəyannaməsi |
| BMT İQK | İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya qarşı BMT Konvensiyası |

## III. Cədvəllərin siyahısı

Cədvəl 1. Cinayət əməllərinin kateqoriyalarına əsasən monitorinqi aparılmış cinayət işlərinin faiz nisbəti ... 12
Cədvəl 2. 2011-ci ildə monitorinq edilmiş məhkəmə işlərinin və iclasların sayı ... 14
Cədvəl 3. Bakıda monitorinq edilmiş işlərin sayı ... 15
Cədvəl 4. Bakıda monitorinq edilmiş məhkəmə iclaslarının sayı ... 15
Cədvəl 5. Bakıda monitorinq edilmiş məhkəmə işlərinin və iclasların sayı ... 16
Cədvəl 6. Regionlarda monitorinq edilmiş işlərin sayı ... 17
Cədvəl 7. Regionlarda monitorinq edilmiş məhkəmə iclaslarının sayı ... 17
Cədvəl 8. Regionlarda monitorinq edilmiş məhkəmə işlərinin və iclasların sayı ... 18
Cədvəl 9. Müqayisəli diaqram – 2010 və 2011-ci illərdə çıxarılmış məhkəmə qərarlarının növləri ... 19
Cədvəl 10. 2011-ci ildə monitorinq edilmiş, seçilmiş ədalətli məhkəmə araşdırması hüququnun pozulması hallarının faizi ... 21
Cədvəl 11. ƏN-in 2011-ci ildə qətimkan tədbirlərinin seçilməsinə dair statistik məlumatı ... 24
Cədvəl 12. Monitorinq edilmiş işlərdə qətimkan tədbirlərinin seçilməsi ... 27
Cədvəl 13. Bakıda qətimkan tədbirlərinin seçilməsi ... 27
Cədvəl 14. Regionlarda qətimkan tədbirlərinin seçilməsi ... 28
Cədvəl 15. Müqayisəli diaqram - 2009, 2010 və 2011-ci illərdə qətimkan tədbirinin seçilməsi ... 28
Cədvəl 16. Müqayisəli diaqram – Bakıda qətimkan tədbirlərinin seçilməsi ... 29
Cədvəl 17. Müqayisəli diaqram - regionlarda qətimkan tədbirlərinin seçilməsi ... 29
Cədvəl 18. Monitorinq edilmiş işlərdə hüquqi yardımın göstərilməsi ... 33
Cədvəl 19. Bakıda monitorinq edilmiş işlərdə hüquqi yardımın göstərilməsi ... 34
Cədvəl 20. Regionlarda monitorinq edilmiş işlərdə hüquqi yardımın göstərilməsi ... 35
Cədvəl 21. Müqayisəli diaqram - 2009, 2010 və 2011-ci illərdə Bakıda və regionlarda hüquqi yardımın göstərilməsi ... 36
Cədvəl 22. Müqayisəli diaqram – Bakıda hüquqi yardımın göstərilməsi ... 36
Cədvəl 23. Müqayisəli diaqram – regionlarda hüquqi yardımın göstərilməsi ... 37

# 1. Giriş

***2011-ci il üzrə Məhkəmə Proseslərinin Monitorinqi Hesabatı.*** Əvvəlki Məhkəmə Proseslərinin Monitorinqi Proqramlarının davamı olaraq[3], ATƏT-in Bakı Ofisinin Qanunun Aliliyi və İnsan Hüquqları şöbəsi bu Hesabatı Azərbaycanın dövlət orqanları və məhkəmə orqanlarının üzvləri ilə sıx əməkdaşlıq şəraitində, Ədliyyə sektorunun inkişaf etdirilməsinə dair Dövlət Proqramına və yenicə qəbul olunmuş 2009-2013-cü illər üçün İnsan Hüquqlarına dair Milli Fəaliyyət Planına[4] uyğun olaraq hazırlayıb. Bu Hesabat əvvəlki məhkəmə proseslərinin monitorinqi hesabatlarının davamıdır və Hesabata Ofisin 2011-ci il yanvarın 1-dən dekabrın 31-dək olan hesabat dövrü ərzində monitorinqi keçirilən seçilmiş məhkəmə işlərinə dair faktiki araşdırmalar və hüquqi təhlil, eyni zamanda Ofisin ədliyyə sistemində müəyyən etdiyi çatışmazlıqlara dair tövsiyələr də daxildir.

Proqram Ofisin 2011-ci il proqram məqsədlərinin nailiyyətlərinə əsaslanır:
"Azərbaycanın ATƏT qarşısında öhdəlikləri, digər beynəlxalq standartlar və ATƏT-in iştirakçı dövlətlərinin ən yaxşı təcrübə nümunələrinə müvafiq olaraq ədliyyə və qanunvericilik islahatlarına dəstəyin verilməsi"[5]

Proqramın əsas[6] məqsədləri aşağıdakılardır:

(a) ədalət mühakiməsinin həyata keçirilməsinin yaxşılaşdırılması, əhalinin məhkəmə sisteminə inamının artırılması;
(b) təqsirləndirilən şəxsin ədalətli məhkəmə araşdırması hüququna əməl olunmasının gücləndirilməsi; və
(c) məhkəmə proseslərinin müvafiq milli qanunvericiliyə və beynəlxalq standartlara uyğun aparılması məsələsində dövlət orqanları ilə əməkdaşlığın davam etməsi.

Ofis dövlət orqanlarına əvvəlki məhkəmə proseslərinin monitorinqi hesabatlarında qeyd olunan tövsiyələrin yerinə yetirilməsinə məhkəmə orqanları üzvlərinin və hüquq peşəsi ilə məşğul olan şəxslərin bacarıqlarının artırılması yolu ilə dəstək verib. Məsələn, Ofis dörd Hüquq Resurs Mərkəzi (HRM)[7] vasitəsilə Məhkəmə-Hüquq Şurası və ədliyyə sektorunun digər iştirakçıları ilə sıx

[3] Ofis 2003-cü ildən bəri Məhkəmə Proseslərinin Monitorinqi Proqramlarını həyata keçirib və indiyədək 4 Məhkəmə Proseslərinin Monitorinqi Hesabatlarını hazırlayıb: 2003/4; 2006/7; 2009 və 2010. Hesabatları Ofisin veb səhifəsinindən əldə etmək mümkündür: www.osce.org/baku.
[4] *2009-2013-cü illər üçün Ədliyyə sisteminin inkişafı üzrə Dövlət Proqramı* və *Azərbaycan Respublikasında İnsan Hüquqları və Azadlıqlarının müdafiəsinin effektivliyinin artırılması üzrə Milli Proqram* Azərbaycan Respublikası Prezidentinin müvafiq olaraq 6 fevral 2009-cü il və 27 dekabr 2011-ci il tarixli fərmanları ilə təsdiq edilib.
[5] *Vahid büdcə:* 23 dekabr 2010-cu ildə ATƏT-in Daimi Şurası tərəfindən ətsdiq edilib.
[6] Layihə təklifi: *2011-2012-ci il Azərbaycanda Məhkəmə Proseslərinin Monitorinqi Proqramı,* layihə dövrü 3 yanvar 2011-ci il tarixdən 31 mart 2013-cü il tarixədək.
[7] Ofis hazırda Gəncə, Lənkəran, Şəki və Sumqayıtda Hüquq Resurs Mərkəzlərini maliyyələşdirir. HRM-i əhaliyə pulsuz hüquqi yardım göstərir, hüquq peşəsi ilə məşğul olan şəxslər və vətəndaş cəmiyyəti üzvləri üçün təlim və ictimai

əməkdaşlıq şəraitində beynəlxalq ədalətli məhkəmə araşdırması normalarına dair Bakıda və regionlarda ixtisaslaşmış təlimlər təşkil edib.

***Ofisin Məhkəmə Proseslərinin Monitorinqi Proqramı.*** Ofis Azərbaycanda 2003-cü ildən bəri "ATƏT prinsipləri və öhdəliklərinin icrasının təşviqi" mandatına[8] uyğun olaraq məhkəmə proseslərinin monitorinqini həyata keçirir. Proqram Azərbaycan məhkəmə sisteminin insan hüquqlarının və fundamental azadlıqlarının müdafiəsinə dair ATƏT öhdəlikləri sırasında olan, təqsirləndirilən şəxsin ədalətli məhkəmə araşdırması hüququna uyğunluğunu qiymətləndirir. Azərbaycan hökuməti Ofis tərəfindən Proqramın müvəffəqiyyətlə icra edilməsinə şərait yaradılması məqsədilə Ofislə davamlı olaraq əməkdaşlıq edib və ədalət mühakiməsindəki çatışmazlıqların müəyyən edilməsində dövlət orqanlarına yardım etmək məqsədilə Proqramın effektivliyinin artırılması üçün Ofisə proqramın əhatə dairəsi və metodologiyasının inkişaf etdirilməsinə imkan yaradıb. Bu hesabat 2011-ci il yanvarın 1-dən dekabrın 31-dək olan hesabat dövrünü əhatə edir. Hesabata müxtəlif məhkəmə instansiyalarına aid və Azərbaycanın müxtəlif regionlarında yerləşən 31 məhkəmədə araşdırılan 520 cinayət işi üzrə keçirilən 2,094 məhkəmə proseslərinin müşahidəsinin nəticələri və müvafiq tövsiyələr daxildir.




maarifləndirmə tədbirləri təşkil edir və onları hüquq resursları və materialları ilə təmin edir. Pilot layihəsi olaraq, Ofis həmçinin Bakıda pulsuz hüquqi yardım göstərən bir Mərkəzi də maliyyələşdirir və həmin Mərkəz əsasən ATƏT-in Bakı Ofisinə ünvanlanmış insan hüquqlarına dair şikayətlərlə bağlı hüquqi yardım göstərir.

[8] Bax: Qoşma – Qanunun aliliyi və cinayət prosesi sahəsində ATƏT öhdəlikləri.

## 2. Əhatə dairəsi və Metodologiya

***Hesabatın əhatə dairəsi.*** 2010-cu il üzrə Məhkəmə Monitorinqi Hesabatında olduğu kimi, bu Hesabatda da əksini tapmış monitorinqin nəticələri müvafiq yerli qanunvericilik, İnsan Hüquqları haqqında Avropa Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin məhkəmə praktikasına müvafiq olaraq, məhkəmə sektorunda ədalətli məhkəmə araşdırmasının norma və standartlarına əməl edilməsi sahəsində ümumi tendensiyaları müəyyən edir. Belə ki, Hesabatın giriş hissəsində Ofisin əvvəlki hesabatlarında qeyd edilən çatışmazlıqların aradan qaldırılması sahəsində Hökumət və digər müvafiq qurumların gördüyü işlər barədə məlumat verilir. Girişdə eyni zamanda məhkəmələrdə ədalətli məhkəmə araşdırması norma və standartlarına tam əməl edilməsinin təmin edilməsi məqsədilə əlavə səylərin vacib olduğu sahələr qeyd edilir. Ofis hesabatın hazırlanmasının ilkin mərhələlərindən Hesabatın dəqiq əhatə dairəsi barəsində ƏN ilə razılaşıb. Ofisin gəldiyi nəticələrin və çatışmazlıqların aradan qaldırılmasına yönələn tövsiyələrin mütəmadi olaraq müzakirə edilməsi üçün ƏN Məhkəmə Proseslərinin Monitorinqi üzrə İşçi Qrupunun iclaslarının təşkil edilməsində Ofisə köməklik göstərib.

***Azərbaycan Respublikası hökuməti və məhkəmə hakimiyyətinin üzvləri ilə məsləhətləşmələrin artması.*** Məhkəmə Proseslərinin Monitorinqi üzrə İşçi Qrup[9] Ofisin gəldiyi nəticələr, çatışmazlıqlar, həmin çatışmazlıqların kökündəki səbəblər və Hökumətin hüquqi və məhkəmə islahatları yolu ilə onların həlli məqsədilə qəbul etdiyi hüquq-müdafiə vasitələrinə dair maraqlı tərəflərin müzakirələrinin asanlaşdırılması məqsədilə təsis edilib və nəticədə Proqramın şəffaflığı və təsir imkanları artıb.

Ofis 2011-ci ildə İşçi Qrupunun tərkibini genişləndirdi və İşçi Qrupunun müzakirələrinə həmçinin Prokurorluq və Vəkillər Kollegiyasının nümayəndələrini də dəvət etdi. Ofis hesabat dövrü ərzində üç Aralıq Hesabat hazırlayıb və həmin hesabatlara İşçi Qrupunun müzakirə etdiyi nəticələr və çatışmazlıqların aradan qaldırılması istiqamətində tövsiyələr daxil edilib.

***Monitorinq metodologiyası.*** Ofis, Proqramı Ofisin 2009-cu ilin yanvar ayında ATƏT-in seçim prosedurlarına[10] uyğun olaraq seçdiyi, yerli vətəndaş cəmiyyətinin üzvü olan icraçı tərəfdaş vasitəsilə icra etməyə davam edib. Ofis eyni zamanda məhkəmə prosesi müşahidəçiləri və koordinatorların seçimi və təlimində bilavasitə iştirak edib.

[9] 2010-cu ildə İşçi Qrupuna ilkin olaraq ƏN və MHŞ-in nümayəndəsi, hakim və Ofisin Məhkəmə Proseslərinin Monitorinqi qrupunun üzvləri daxil idi.
[10] ATƏT-in 15 saylı Daxili İnzibati Təlimatı

Məhkəmələrin milli qanunvericilik və beynəlxalq ədalətli məhkəmə araşdırması standartlarına əməl etməsini müəyyən etmək üçün Monitorinq Qrupu müşahidəçilərin məhkəmə iclaslarının monitorinqi zamanı topladıqları faktiki məlumatları təhlil edib. Faktiki məlumatların daxili qanunvericiliyin müvafiq müddəaları və beynəlxalq ədalətli məhkəmə araşdırması standartlarına əsasən hüquqi təhlili Ofisin İşçi Qrupu çərçivəsində müzakirə etdiyi Aralıq Məhkəmə Proseslərinin Monitorinqi Hesabatlarının əsas xəttini təşkil edib. Ofis bu müzakirələr əsasında, hesabat dövrü ərzində ədliyyə sistemində əldə olunan nailiyyətlər barədə İşçi Qrupu iştirakçılarının Ofisə təqdim etdiyi məlumatları əlavə edərək Hesabatı tərtib edib.

Əlavə olaraq, Ofis artıq Proqramda iştirak edə bilməyən və qənaətbəxş fəaliyyət göstərə bilməyən məhkəmə prosesi müşahidəçilərini əvəz etmək üçün əlavə məhkəmə prosesi müşahidəçilərini seçib. Ofis eyni zamanda yenicə seçilmiş və mövcud məhkəmə prosesi müşahidəçiləri və koordinatorlar üçün ATƏT-in monitorinq standartları, eyni zamanda daxili maddi və prosessual, cinayət və inzibati qanunvericiliyinə dair iki təlim tədbirini təşkil edib.

Hesabat dövrü ərzində 16 nəfər məhkəmə prosesi müşahidəçisi paytaxt Bakıda, Gəncə, Sumqayıt, Hacıqabul, İsmayıllı, Göyçay, Abşeron, Lənkəran və Şəki regionlarında məhkəmə proseslərinin monitorinqini həyata keçiriblər. Məhkəmə prosesi müşahidəçiləri Ofisin icraçı tərəfdaşı ilə məsləhətləşmələr əsasında hazırladığı ətraflı sorğu anketi vasitəsilə məhkəmələrin daxili qanunvericilik və beynəlxalq ədalətli məhkəmə araşdırması standartlarına əməl etmələrinə dair faktiki məlumat toplayıblar. Məhkəmə prosesi müşahidəçiləri faktiki məlumatları ATƏT-in məhkəmə proseslərinin müşahidəsi standartlarına əsasən obyektiv və bitərəf şəkildə, işin mahiyyəti ilə əlaqədar hər hansı qiymətləndirmə aparmadan toplayıblar.

Ofis, monitorinqini keçirdiyi cinayət işlərinin mahiyyətində müxtəlifliyi təmin etmək məqsədilə 70 cinayəti əhatə edən 15 kateqoriya üzrə cinayətləri monitorinqə daxil etmişdir.

**Monitorinqi aparılmış cinayət əməlləri və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq müddəaları**

| Cinayətlərin kateqoriyası | Cinayət Məcəlləsinin maddələri |
|---|---|
| Həyat və Sağlamlıq əleyhinə olan cinayətlər | Maddə 120. Qəsdən adam öldürmə<br>Maddə 124. Ehtiyatsızlıqdan adam öldürmə<br>Maddə 126. Qəsdən sağlamlığa ağır zərər vurma<br>Maddə 127. Qəsdən sağlamlığa az ağır zərər vurma<br>Maddə 128. Qəsdən sağlamlığa yüngül zərər vurma<br>Maddə 132. Döymə<br>Maddə 134. Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə |
| Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | Maddə 144. Adam oğurluğu<br>Maddə 144-1. İnsan alveri<br>Maddə 145. Qanunsuz azadlıqdan məhrum etmə<br>Maddə 147. Böhtan<br>Maddə 148. Təhqir |
| Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər | Maddə 149. Zorlama<br>Maddə 150. Seksual xarakterli zorakılıq hərəkətləri<br>Maddə 152. On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə |
| İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər | Maddə 159. Seçki (referendumda iştirak) hüquqlarının həyata keçirilməsinə maneolma<br>Maddə 160. Seçki (referendum) komissiyalarının işinə müdaxilə etmə və ya təsir göstərmə |
| Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər | Maddə 170. Yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə<br>Maddə 176. Uşaqlara və ya valideynlərə kömək göstərməkdən qərəzli boyun qaçırma |
| Mülkiyyət əleyhinə olan cinayətlər | Maddə 177. Oğurluq<br>Maddə 178. Dələduzluq<br>Maddə 179. Mənimsəmə və ya israf etmə<br>Maddə 180. Soyğunçuluq<br>Maddə 181. Quldurluq<br>Maddə 185. Talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirmə<br>Maddə 186. Əmlakı qəsdən məhv etmə və ya zədələmə |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | Maddə 191. Torpaqla əlaqədar qanunsuz əqdlərin qeydiyyatı<br>Maddə 193-1. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma<br>Maddə 200. İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma<br>Maddə 206. Qaçaqmalçılıq<br>Maddə 213. Vergi ödəməkdən yayınma |

| | |
|---|---|
| İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər | Maddə 214. Terrorizm<br>Maddə 216. Terrorçuluq barədə bilə-bilə yalan məlumat vermə<br>Maddə 217. Banditizm<br>Maddə 221. Xuliqanlıq<br>Maddə 225. Yanğın təhlükəsizliyi qaydalarını pozma<br>Maddə 228. Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə<br>Maddə 229. Qanunsuz olaraq silah hazırlama<br>Maddə 230. Odlu silahı diqqətsiz saxlama<br>Maddə 232. Odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etmə<br>Maddə 233. İctimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etmə |
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər | Maddə 234. Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma<br>Maddə 236. Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə<br>Maddə 237. Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə |
| İctimai mənəviyyat əleyhinə cinayətlər | Maddə 242. Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma<br>Maddə 243. Fahişəliyə cəlb etmə<br>Maddə 244. Əxlaqsızlıq yuvaları saxlama |
| Hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər | Maddə 263. Yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma<br>Maddə 264. Yol nəqliyyat hadisəsi yerindən qaçma |
| Dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər | Maddə 278. Hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama<br>Maddə 279. Qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma<br>Maddə 283. Milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması |
| Ədalət mühakiməsi əleyhinə olan cinayətlər | Maddə 289. Məhkəməyə hörmətsizlik etmə<br>Maddə 296. Bilə-bilə yalan xəbərçilik etmə<br>Maddə 299. İfadə verməkdən boyun qaçırmağa, yalan ifadə və ya yalan rəy verməyə, yaxud yanlış tərcümə etməyə məcbur etmə və ya pulla ələ alma<br>Maddə 304. Azadlıqdan məhrum etmə yerindən, həbsdən və ya mühafizə altından qaçma<br>Maddə 306. Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməmə |

| | |
|---|---|
| Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər | Maddə 309. Vəzifə səlahiyyətlərini aşma<br>Maddə 310. Vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə<br>Maddə 311. Rüşvət alma (passiv rüşvətxorluq)<br>Maddə 313. Vəzifə saxtakarlığı<br>Maddə 314. Səhlənkarlıq |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | Maddə 315. Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə<br>Maddə 317. Cəzaçəkmə müəssisələrinin və ya istintaq təcridxanalırının normal fəaliyyətini pozma<br>Maddə 317-2. Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi<br>Maddə 318. Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə<br>Maddə 320. Rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə<br>Maddə 321. Hərbi xidmət keçməkdən boyun qaçırma<br>Maddə 322. Özbaşınalıq<br>Maddə 326. Rəsmi sənədləri, ştampları, möhürləri oğurlama və ya məhv etmə |

**1-ci Cədvəl. Cinayət əməllərinin kateqoriyalarına əsasən monitorinqi aparılmış cinayət işlərinin faiz nisbəti**




Ofis eyni zamanda Ofisin diqqətinə çatdırılmış, insan hüquqları, əsasən ifadə azadlığı, birləşmə azadlığı və sərbəst toplaşma azadlığına dair ATƏT öhdəliklərinin güman edilən pozuntu halları ilə bağlı məhkəmə proseslərinin ad hoc monitorinq edilməsini müşahidəçilərə tapşırıb.

***Beynəlxalq ədalətli məhkəmə araşdırması standartları.*** Ofis maddi hüquqla bağlı məsələlərə dair qiymətləndirmə aparmadan məhkəmələrin müvafiq daxili qanunvericilik və beynəlxalq ədalətli məhkəmə araşdırması standartlarının prosessual tələblərinə əməl etmələrinin monitorinqini aparıb. Ofisin Məhkəmə Proseslərinin Monitorinqi Qrupu daxili qanunvericiliyə əlavə olaraq, ATƏT öhdəlikləri, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası (AİHK), eyni zamanda Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedent hüququnu da nəzərə alıb. Bundan əlavə, ehtiyyac olduğu halda bu Hesabat eyni zamanda BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktına (MSHBP) və İşgəncələrə və Digər Qəddar, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəzaya qarşı BMT Konvensiyasına (BMT İQK) istinad edir.

***Monitorinqi aparılmış məhkəmə işlərinin icmalı.*** Ofis Bakıda 348, regionlarda 312 olmaqla, ölkə üzrə 480 cinayət işinin monitorinqini aparıb. Bundan əlavə, Ofis yalnız bir dəfə olmaqla, Bakıda 73, regionlarda 3, ümumilikdə 40 mülki və inzibati işin monitorinqini aparıb. Monitorinqi aparılmış məhkəmə iclasların ümumi sayı 2,094 olub. Bunlardan 1,580-i Bakıda, 514-ü isə ölkənin digər ərazilərində baş tutub.

Ofisin iki müşahidəçisi Gəncə və Sumqayıtda, 14 müşahidəçisi isə paytaxt Bakı ərazisində müşahidə apardığı üçün, məhz bu şəhərlərdə müşahidə edilmiş işlərin sayı ölkənin digər regionları ilə müqayisədə daha çox olub. Ümumiyyətlə, monitorinq məqsədilə cinayət işlərini seçərkən, Ofis əsasən məhkəmələrin iş yükünü və eyni zamanda işlərin mürəkkəbliyini nəzərə alıb və ağır cinayətlərə dair məhkəmə proseslərinin müşahidə edilməsinə üstünlük verib.

**2-ci Cədvəl: 2011-ci ildə Monitorinqi aparılmış məhkəmə işləri və proseslərinin sayı**

| MƏHKƏMƏ | MƏHKƏMƏ İŞLƏRİ | | | MƏHKƏMƏ PROSESLƏRİ | | |
|---|---|---|---|---|---|---|
| | Cinayət | Mülki | Cəmi | Cinayət | Mülki | Cəmi |
| Ali Məhkəmə | 2 | 6 | 8 | 2 | 6 | 8 |
| Bakı Apellyasiya Məhkəməsi | 10 | 12 | 22 | 17 | 21 | 38 |
| Gəncə Apellyasiya Məhkəməsi | 3 | 0 | 3 | 7 | 0 | 7 |
| Gəncə Ağır Cinayətlər Məhkəməsi | 30 | - | 30 | 199 | - | 199 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 2 | 1 | 3 | 13 | 1 | 14 |
| Bakı Ağır Cinayətlər Məhkəməsi | 84 | - | 84 | 483 | - | 483 |
| #1 saylı Bakı İnibati-İqtisadi Məhkəməsi | - | 5 | 5 | - | 12 | 12 |
| #2 saylı Bakı İnibati-İqtisadi Məhkəməsi | - | 2 | 2 | - | 3 | 3 |
| Abşeron rayon məhkəməsi | 29 | 0 | 29 | 73 | 0 | 73 |
| Binəqədi rayon məhkəməsi | 19 | 2 | 21 | 68 | 6 | 74 |
| Qaradağ rayon məhkəməsi | 13 | 0 | 13 | 32 | 0 | 32 |
| Göyçay rayon məhkəməsi | 2 | 0 | 2 | 5 | 0 | 5 |
| Kəpəz (Gəncə) rayon məhkəməsi | 4 | 0 | 4 | 14 | 0 | 14 |
| Nizami (Gəncə) rayon məhkəməsi | 5 | 0 | 5 | 36 | 0 | 36 |
| Hacıqabul rayon məhkəməsi | 0 | 2 | 2 | 0 | 2 | 2 |
| İsmayıllı rayon məhkəməsi | 2 | 0 | 2 | 2 | 0 | 2 |
| Xətai rayon məhkəməsi | 15 | 0 | 15 | 79 | 0 | 79 |
| Xəzər rayon məhkəməsi | 1 | 1 | 2 | 3 | 1 | 4 |
| Lənkəran Ağır Cinayətlər Məhkəməsi | 10 | 0 | 10 | 30 | 0 | 30 |
| Lənkəran rayon məhkəməsi | 2 | 0 | 2 | 2 | 0 | 2 |
| Nərimanov rayon məhkəməsi | 38 | 1 | 39 | 157 | 4 | 161 |
| Nəsimi rayon məhkəməsi | 43 | 2 | 45 | 190 | 3 | 193 |
| Nizami rayon məhkəməsi | 36 | 0 | 36 | 126 | 0 | 126 |
| Səbail rayon məhkəməsi | 11 | 5 | 16 | 56 | 7 | 63 |
| Sabunçu rayon məhkəməsi | 34 | 0 | 34 | 150 | 0 | 150 |
| Şəki Apellyasiya Məhkəməsi | 3 | 0 | 3 | 8 | 0 | 8 |
| Şəki Ağır Cinayətlər Məhkəməsi | 4 | - | 4 | 9 | - | 9 |
| Şəki rayon məhkəməsi | 1 | 0 | 1 | 1 | 0 | 1 |
| Suraxanı rayon məhkəməsi | 33 | 0 | 33 | 131 | 0 | 131 |
| Sumqayıt Şəhər Məhkəməsi | 35 | 0 | 35 | 112 | 0 | 112 |
| Yasamal rayon məhkəməsi | 9 | 1 | 10 | 22 | 1 | 23 |
| **CƏMİ:** | **480** | **40** | **520** | **2027** | **67** | **2094** |

## 3-cü Cədvəl: Bakıda monitorinqi aparılmış məhkəmə işlərinin sayı




## 4-cü Cədvəl: Bakıda monitorinqi aparılmış proseslərin sayı



**5-ci Cədvəl: Bakıda monitorinqi aparılmış məhkəmə işləri və proseslərinin sayı**

| Məhkəmələr | MƏHKƏMƏ İŞLƏRİ | | | MƏHKƏMƏ PROSESLƏRİ | | |
|---|---|---|---|---|---|---|
| | Cinayət | Mülki | Cəmi | Cinayət | Mülki | Cəmi |
| Ali Məhkəmə | 2 | 6 | 8 | 2 | 6 | 8 |
| Bakı Apellyasiya Məhkəməsi | 10 | 12 | 22 | 17 | 21 | 38 |
| Bakı Ağır Cinayətlər Məhkəməsi | 84 | - | 84 | 483 | - | 483 |
| 1 saylı Bakı İnzibati İqtisadi Məhkəmə | - | 5 | 5 | - | 12 | 12 |
| 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəmə | - | 2 | 2 | - | 3 | 3 |
| Binəqədi rayon məhkəməsi | 19 | 2 | 21 | 68 | 6 | 74 |
| Qaradağ rayon məhkəməsi | 13 | 0 | 13 | 32 | 0 | 32 |
| Xətai rayon məhkəməsi | 15 | 0 | 15 | 79 | 0 | 79 |
| Xəzər rayon məhkəməsi | 1 | 1 | 2 | 3 | 1 | 4 |
| Nərimanov rayon məhkəməsi | 38 | 1 | 39 | 157 | 4 | 161 |
| Nəsimi rayon məhkəməsi | 43 | 2 | 45 | 190 | 3 | 193 |
| Nizami rayon məhkəməsi | 36 | 0 | 36 | 126 | 0 | 126 |
| Səbail rayon məhkəməsi | 11 | 5 | 16 | 56 | 7 | 63 |
| Sabunçu rayon məhkəməsi | 34 | 0 | 34 | 150 | 0 | 150 |
| Suraxanı rayon məhkəməsi | 33 | 0 | 33 | 131 | 0 | 131 |
| Yasamal rayon məhkəməsi | 9 | 1 | 10 | 22 | 1 | 23 |
| **CƏMİ:** | **348** | **37** | **385** | **1516** | **64** | **1580** |

**6-cı Cədvəl: Bölgələrdə monitorinqi aparılmış məhkəmə işlərinin sayı**




**7-ci Cədvəl: Bölgələrdə monitorinqi aparılmış məhkəmə proseslərinin sayı**



**8-ci Cədvəl: Bölgələrdə monitorinqi aparılmış məhkəmə işləri və proseslərinin sayı**

| MƏHKƏMƏLƏR | MƏHKƏMƏ İŞLƏRİ | | | MƏHKƏMƏ PROSESLƏRİ | | |
|---|---|---|---|---|---|---|
| | Cinayət | Mülki | Cəmi | Cinayət | Mülki | Cəmi |
| Gəncə Apellyasiya Məhkəməsi | 3 | 0 | 3 | 7 | 0 | 7 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 2 | 1 | 3 | 13 | 1 | 14 |
| Gəncə Ağır Cinayətlər Məhkəməsi | 30 | - | 30 | 199 | - | 199 |
| Sumqayıt Şəhər Məhkəməsi | 35 | 0 | 35 | 112 | 0 | 112 |
| Abşeron rayon məhkəməsi | 29 | 0 | 29 | 73 | 0 | 73 |
| Göyçay rayon məhkəməsi | 2 | 0 | 2 | 5 | 0 | 5 |
| Kəpəz (Gəncə) rayon məhkəməsi | 4 | 0 | 4 | 14 | 0 | 14 |
| Nizami (Gəncə) rayon məhkəməsi | 5 | 0 | 5 | 36 | 0 | 36 |
| Hacıqabul rayon məhkəməsi | 0 | 2 | 2 | 0 | 2 | 2 |
| İsmayıllı rayon məhkəməsi | 2 | 0 | 2 | 2 | 0 | 2 |
| Lənkəran Ağır Cinayətlər Məhkəməsi | 10 | 0 | 10 | 30 | 0 | 30 |
| Lənkəran rayon məhkəməsi | 2 | 0 | 2 | 2 | 0 | 2 |
| Şəki Apellyasiya Məhkəməsi | 3 | 0 | 3 | 8 | 0 | 8 |
| Şəki Ağır Cinayətlər Məhkəəsi | 4 | - | 4 | 9 | - | 9 |
| Şəki rayon məhkəməsi | 1 | 0 | 1 | 1 | 0 | 1 |
| **CƏMİ** | **132** | **3** | **135** | **511** | **3** | **514** |

**9-cu Cədvəl: 2010 və 2011-ci illərdə cinayət işləri üzrə çıxarılmış hökmlərin növləri**




Ədliyyə Nazirliyi tərəfindən ittiham və bəraət hökmlərinə dair Ofisə təqdim edilən statistik məlumata əsasən, 2011-ci ildə ittiham və bəraət hökmləri arasındakı nisbət olduqca aşağı idi və ittiham hökmləri məhkəmələrin hesabat dövrü ərzində çıxardığı hökmlərin 99,8%-i təşkil edirdi.

## 3. Ədliyyə sektorunun inkişafı

***Hakimlər və prokurorlar.*** Məhkəmə-Hüquq Şurasının (MHŞ) verdiyi məlumata əsasən, hesabat dövründə 26 yeni hakim təyin olunub və hakimlərin sayı ümumilikdə 2011-ci il üzrə 473 olub. Əlavə olaraq, hakim olmaq üçün müraciət edən və müsahibə prosesindən keçən 414 namizəddən 77-i şifahi imtahanlardan keçib və hakim olmaq üçün birillik məcburi təlim kurslarına cəlb olunub. MHŞ fəaliyyətlərindəki çatışmazlıqlara görə 2 hakimi vəzifəsindən uzaqlaşdırıb, 7 hakim barəsində intizam tədbirləri görüb və səmərəli fəaliyyətlərinə görə 4 hakimi mükafatlandırıb.[11]

Baş Prokurorluq hesabat dövrü ərzində 7 prokuror barəsində intizam təqdirlərinin görülməsi və göstərdikləri nümunəvi xidmətə görə 14 prokurorun mükafatlandırılması barədə məlumat verib.

***Hakimlər üçün təlimlərin keçirilməsi.*** MHŞ Ofisə Ədliyyə Akademiyası ilə birgə 17 ixtisaslaşmış təlimin təşkil edilməsinə dair məlumat verib. Həmin təlim sessiyalarında təqribən 300 hakim iştirak edib.

[11] Azərbaycan Respublikası Prezidentinin 21 noyabr 2011-ci il tarixli sərəncamına əsasən "Tərəqqi" medalı

***Yeni məhkəmə binaları.*** ƏN-in verdiyi məlumata əsasən, Nazirlik 2011-ci ildə də məhkəmə binalarında iş şəraitinin yaxşılaşdırılması üçün səylər göstərib və yeni yaradılmış inzibati-iqtisadi məhkəmələr[12] və ağır cinayətlər məhkəmələri[13] üçün regionlarda yeni binalar ayırmışdır. Bundan əlavə, Ədliyyə Sisteminin Müasirləşdirilməsi Layihəsinin[14] çərçivəsində ƏN 2011-ci ildə Oğuz rayon məhkəməsinin binasının tikintisini başa çatdırıb. ƏN eyni zamanda Bakı şəhəri Yasamal rayon məhkəməsinin, Gədəbəy və Gəncə şəhəri Nizami rayon məhkəməsinin binalarının da tikilməkdə olduğunu və 2012-ci ildə tikintinin başa çatmasının gözlənildiyini bildirib.

***Metal qəfəslərdən istifadə.*** Ofis Ağdaş, Oğuz, Qobustan, Gəncə şəhəri Kəpəz rayon məhkəmələrində və Lənkəran Ağır Cinayətlər Məhkəməsində metal qəfəslərin şüşə bəndlərlə əvəz edilməsini müsbət hal kimi qiymətləndirir.

***Məhkəmə idarəetməsində müasir texnologiyalardan istifadə.*** ƏN müasir məhkəmə idarəetmə sistemləri ilə tanışlıq məqsədilə, hakimlər də daxil olmaqla ədliyyə sektorunun heyətində bir sıra mübadilələr təşkil edib. ƏN eyni zamanda məhkəmə məlumatlarının birləşdirilməsi və məhkəmələrlə ƏN arasında məlumat və material mübadiləsini aparmaq üçün bir-biri ilə əlaqəli kommunikasiya sistemini yaratmaq üçün strategiya[15] hazırlayıb.

Yeni məhkəmə idarəetməsi sistemi məhkəmə materialları və sənədlərin onlayn qeydiyyatı barədə asan əldə edilə bilən məlumat, yazışmalar, məhkəmə statistikası, eyni zamanda məhkəmə işlərinin hansı hakimə tapşırılmasına dair məlumat da daxil olmaqla, digər müvafiq məlumatların idarəetməsini əhəmiyyətli dərəcədə sadələşdirəcəkdir. O eyni zamanda qanunvericilik məlumat bazası və presedent hüququna çıxış imkanı yaradacaqdır.

***Yeni veb səhifə.*** ƏN 2011-ci ilin noyabr ayında əhalinin məhkəmələrə çatımlığını təmin etmək üçün yeni veb-səhifəni istifadəyə verib. Yeni veb-səhifə müxtəlif məhkəmə instansiyaları və onların səlahiyyətləri barədə məlumat verir və həmin məhkəmələrə müraciət etmə prosedurlarını əks etdirir.

---

[12] 2011-ci ilin yanvar ayından Bakı (iki məhkəmə), Şəki, Şirvan, Gəncə, Sumqayıt və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərir.

[13] Lənkəran, Gəncə və Şəki.

[14] 2006-cı ildən – Dünya Bank – davam edir.

[15] ƏN-in verdiyi məlumata əsasən yeni elektron sistem 2012-ci ilin sonu, 2013-cü ilin əvvəllərindən fəaliyyətə başlayacaqdır.

## 4. Nəticələr və tendensiyaların təhlili

Dövlət orqanları və ədliyyə sektorunun vəzifəli şəxsləri hesabat dövrü ərzində bacarıqların artırılmasına dair fəaliyyətlər, məhkəmələrin maddi təminatının yaxşılaşdırılması və eyni zamanda elektron ədliyyə sisteminin inkişaf etdirilməsi yolu ilə ədliyyə sektorunun ATƏT öhdəlikləri və beynəlxalq ədalətli məhkəmə araşdırması standartları ilə uyğunluğunun artırılması məqsədilə səylərini davam ediblər.

Hesabatda hələ də mövcud olan çatışmazlıqlar vurğulanır. O, xüsusilə təqsirləndirilən şəxsin müdafiəçi ilə səmərəli şəkildə təmsil olunmaq, azadlıq və şəxsi toxunulmazlıq, tərəflərin bərabərliyi və işin müstəqil və qərəzsiz məhkəmə tərəfindən araşdırılması hüquqlarını əhatə edir. Bundan əlavə, Hesabatda açıq məhkəmə araşdırması hüququ, tərcüməçi köməyindən pulsuz istifadə etmək hüququ, öz əleyhinə ifadə verməmək hüququ, pis rəftar barədə şikayətlərin araşdırılması hüququ və həmçinin əsaslandırılmış qərar almaq hüququ da daxil olmaqla, məhkəmələrin digər seçilmiş ədalətli məhkəmə araşdırması hüququna dair təminatlara əməl etməsinə dair ümumi bölmə vardır.

**<u>10-cu Cədvəl: 2011-ci ildə monitorinqi aparılan məhkəmə proseslərində seçilmiş ədalətli məhkəmə araşdırması hüququ pozuntuları</u>**



### i) İşin müstəqil və qərəzsiz məhkəmə tərəfindən araşdırılması hüququ

***İşin müstəqil və qərəzsiz məhkəmə tərəfindən araşdırılması hüququnun əsasları.*** AİHK və ATƏT öhdəlikləri ədalətli məhkəmə araşdırmasının əsas təminatlarından biri kimi işin müstəqil və qərəzsiz məhkəmə tərəfindən araşdırılması hüququnu təmin edir. [16] Xüsusilə də CPM-ə əsasən,[17] əgər hakimin məhkəmə işinə dair hər hansı bir amilin təsiri altında qalmasının özünün müstəqilliyinə təsir edə biləcəyinə inanmaq üçün səbəbləri varsa, o özünün həmin məhkəmə işindəki iştirakına etiraz etməlidir. Prosesin tərəfləri də həmin hakimin əvəz edilməsini tələb etmək hüququna[18] malikdirlər.

Hesabat müşahidə edilmiş məhkəmə proseslərində hakimlərin daxili qanunvericilik, beynəlxalq standartlar və AİHM-in presedent hüququnun tələblərinə uyğun olaraq müstəqil və tərəfsiz olub-olmamaları məsələsinə diqqəti yönəldib. [19]

***AİHM-in müvafiq presedent hüququ:*** Fətullayevin Azərbaycana qarşı[20] (*Fatullayev v. Azerbaijan*) işində AİHM ərizəçiyə qarşı cinayət işinə baxan hakimin əvvəllər ona qarşı mülki iddianı araşdıran hakim olması səbəbindən, işin müstəqil və qərəzsiz məhkəmə tərəfindən araşdırılması hüququnun pozulduğunu təsbit edib. AİHM bu nəticəyə gələrkən, hakimin ərizəçinin mülki və cinayət məsuliyyətinə dair məsələlərə eyni vaxtda yox, iki fərqli, cinayət və mülki proseslərdə baxmasını nəzərə alıb. Məhkəmə hər iki prosesin eyni işə aid olduğunu təsbit edib və hakimin artıq əvvəlcədən həmin ərizəçiyə qarşı mülki iş üzrə eyni faktları tədqiq etdiyindən, ərizəçiyə qarşı cinayət işini araşdırarkən qərəzli olduğuna dair nəticəyə gəlib.

***Müstəqillik və qərəzsizlik anlayışı.*** Layihə qrupu qeyd edir ki, müşahidə edilən bəzi məhkəmə işlərində hakimlərin davranışları onların müstəqilliyi və qərəzsizliyi ilə bağlı şübhələr yaradıb. Bu hallara aşağıdakılar aiddir:

(i) hakimlər prokurorun qaldırdığı bütün vəsatətləri təmin edir və prokurorun razılaşmadığı, müdafiəçinin nümayəndəsinin qaldırdığı bir çox vəsatətləri hər hansı bir ağlabatan əsas olmadan rədd edib;

---

[16] AİHK-ın 6.2-ci maddəsi və 1989-cu ilin Vyana Sənədi (13.9), bax: Əlavə I.
[17] CPM-in 107.2-ci maddəsi.
[18] CPM-in 109-cu maddəsi.
[19] "Ədalət həyata keçirilməklə məhdudlaşmır, onun həyata keçirilməsi təəssüratı da mövcud olmalıdır." *Delkur Belçikaya qarşı (*Delcourt v Belgium*)*, AİHM, 17 yanvar 1970-ci il tarixli qərar, 31-ci bənd..
[20] Bax: Fətullayev Azərbaycan qarşı (Fatullayev v. Azerbaijan), AİHM-in 22 aprel 2010-cu il tarixli qərarı 40984/07 saylı iş

(ii) hakimlər məhkəməyə qədər istintaq mərhələsində iddia edilən ədalətli məhkəmə araşdırması hüququ pozuntularına dair müdafiəçilərin əsaslı və ciddi iddialarının, CPM-ə əsasən bu barədə öhdəlik daşımalarına baxmayaraq[21], səmərəli tədqiqatını aparmayıb;

(iii) hakimlərin təqsirləndirilən şəxsi dindirmə tərzləri, onların ittiham mövqeyində durması təəssüratının yaranmasına səbəb olub. Məsələn, bəzi hallarda məhkəmə işinə sədrlik edən hakimlər təqsirləndirilən şəxsləri və müdafiə tərəfinin şahidlərini dindirərkən yönəldici suallardan, o cümlədən təqsirsizlik prezumpsiyası prinsipinin açıq-aydın pozulması təəssüratını yaradan suallardan istifadə ediblər;

(iv) müşahidələr zamanı məhkəmə prosesi başa çatmadan hakimlərin təqsirləndirilən şəxslərin təqsirini öncədən müəyyən etmələri təəssuratını yaradan hallara da rast gəlinib. Məsələn, bir iş üzrə təqsirləndirilən şəxsin məhkəməyə qədər həbsinə dair şikayətinə cavab olaraq, hakim məhkəmənin həbs müddətini azadlıqdan məhrum etməyə dair yekun hökmdən çıxa biləcəyini bildirib. Başqa bir halda, işin mahiyyətinə dair birinci məhkəmə baxışı zamanı hakim təqsirləndirilən şəxsin məhkumluğuna dair məlumat tələb edib və bununla bağlı, sübutların heç birini nəzərə almadan, hakimin ittiham edilən şəxsin cinayəti törətməsinə dair qərəzli nəticəyə gəlməsi təəssüratının yaranmasına səbəb ola biləcək şərhlər edib.

### *ii) Azadlıq və şəxsi toxunulmazlıq hüququ*

***Azadlıq və şəxsi toxunulmazlıq hüququnun əsasları.*** AİHK-ın 5-ci maddəsi "hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququna malik olmasını" təsbit edir.[22] Hüquq-mühafizə orqanlarının vəzifəli şəxsləri istənilən şəxsi azadlıqdan məhrum edərkən, bunu qanuni çərçivədə və qanunvericiliklə tənzimlənən prosessual qaydalara əsasən etməlidirlər. Bundan əlavə, özbaşınalığın qarşısının alınması məqsədilə, yalnız səlahiyyətli orqanlar şəxsin azadlıqdan məhrum edilməsinə dair qərar qəbul və icra edə bilər. AİHK-ın 5-ci maddəsinin 3-cü bəndinə əsasən, hüquq-mühafizə orqanlarının vəzifəli şəxsləri tutulmuş və ya həbs olunmuş şəxsləri dərhal hakim və ya qanunvericilik tərəfindən mühakimə səlahiyyətləri verilmiş digər şəxslər qarşısına çıxarmalıdır. İttiham olunan şəxslərin eyni zamanda ağlabatan müddət ərzində təxirə salınmadan məhkəmə araşdırması hüququ var və məhkəmə onları qanunvericilikdə nəzərdə tutulan hallarda məhkəmə prosesi başlayana qədər azadlığa buraxa bilər. Bundan başqa AİHK-ın 5-ci maddəsinin 4-cü bəndi tutulma və ya həbs nəticəsində azadlıqdan məhrum edilmiş hər kəsin onun həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan baxılması və həbsin məhkəmə tərəfindən qanunsuz hesab edildiyi

[21] CPM-in 299, 300, 301, 303 və eyni zamanda 355-ci maddəsi.
[22] AİHK-ın 5.1-ci maddəsi.

halda, azadlığa buraxılması hüququna malik olduğunu təsbit edir.[23] AİHK-ın 5-ci maddəsinin 3-cü bəndinə əsasən, məhkəmə ədalət maraqları baxımından dövlət ittihamçısının həbsin davam etməsini əsaslandırmasına dair sübutlarını və təqsirləndirilən şəxsin, özünün azadlığa buraxılmasını müdafiə etməsinə dair sübutlarını dərindən tədqiq etməli, azadlıq hüququ və davam edən istintaqla əlaqədar olaraq, zərərçəkmiş şəxs və şahidlərin qorunması marağı arasında tarazlığı təmin etməlidir.[24]

Azərbaycan qanunvericiliyinə əsasən, hakimlər təqsirləndirilən şəxsin həbs müddətini əsassız olaraq uzatmamalıdır. Beləliklə, hakimlər hər bir iş üzrə əlaqədar olaraq ortaya qoyulmuş bütün hal və sübutları lazımi qaydada nəzərə aldıqdan sonra, həbs qətimkan tədbirinə alternativ məhdudlaşdırıcı tədbir kimi həbs qətimkan tədbirini ev dustaqlığı və ya girov qətimkan tədbirləri ilə əvəz edə bilər. AİHM təqsirləndirilən şəxsin həbsinin davam etməsinə dair dörd səbəb tanıyır: məhkəmədən boyun qaçırmaq təhlükəsi, ədalət mühakiməsinə müdaxilə, cinayət törədilməsinin qarşısının alınmasına və ya ictimai asayişin qorunmasına dair zərurət.

**<u>11-ci Cədvəl: 2011-ci ildə məhkəmələr tərəfindən seçilmiş qətimkan tədbirlərinə dair ƏN-in statistikası</u>**




[23] Habeas corpus prosesləri.
[24] CPM-in 154.4-cü maddəsinə əsasən həbs, ev dustaqlığı və girov qətimkan tədbirləri barədə qərar məhkəmələr tərəfindən qəbul edilir.

Beləliklə, ƏN-in təqdim etdiyi statistik məlumata əsasən, həbs qətimkan tədbiri məhkəmələrin 2011-ci ildə ən çox tətbiq etdiyi qətimkan tədbiridir və yalnız təqribən 2% məhkəmə işlərində həbs ev dustaqlığı ilə əvəz edilib.

***AİHM-nin presedent hüququ.*** Təqsirləndirilən şəxslərin qeyri-qanuni həbsdə saxlanması ilə əlaqədar olaraq, AİHM *Fərhad Əliyev Azərbaycana qarşı*[25] *(Farhad Aliyev v. Azerbaijan)* işində həbsdə saxlama səlahiyyətinə malik orqanların təqsirləndirilən şəxsi məhkəmənin həbs qərarının müddətinin başa çatmasından sonra və məhkəmənin hazırlıq iclası zamanı onun həbsdə saxlanması məsələsinə baxmasına qədər əlavə bir ay müddətinə həbsdə saxladığı halı təhlil edib. AİHM, təqsirləndirilən şəxsin həbs müddətinin məhkəmə qərarı olmadan uzadılmasını əsaslandırmaq məqsədilə CPM-in 158.4-cü maddəsinə istinad edilməsinin[26] təqsirləndirilən şəxsin AİHK-in 5-ci maddəsində nəzərdə tutulan azadlıq hüququnun pozulması ilə nəticələndiyi barədə qərara gəlib.[27]

Bundan əlavə, AİHM Azərbaycan məhkəmələrinin müvafiq qərarlarında ərizəçilərin davam edən həbsinin onların şəxsi vəziyyətləri ilə lazımi qaydada əsaslandırılmaması səbəbindən bir sıra qərarlarında 5-ci maddənin pozulmasını təsbit edib. Məsələn, *Rafiq Əliyevin Azərbaycana qarşı* (*Rafig Aliyev v. Azerbaijan*)[28] və *Muradverdiyevin Azərbaycana qarşı (Muradverdiyev v. Azerbaijan*)[29] işlərində AİHM müəyyən edib ki, ərizəçilərin müdafiəçiləri tərəfindən ortaya qoyulan spesifik fakt və sübutlara müraciət etmədən, sadəcə həbs üçün səbəbləri sıralayaraq standart düsturdan istifadə etməklə, məhkəmə ərizəçilərin həbs müddətinin uzadılmasını "müvafiq" və "yetərli" səbəblərlə əsaslandırmayıb.

AİHM eyni zamanda müvafiq məhkəmə proseslərində çəkişmə prinsipinə və tərəflərin bərabərliyi prinsipinə əməl edilməməsi səbəbindən AİHK-ın 5-ci maddəsinin pozulduğunu təsbit edib.

---

[25] Bax: *Fərhad Əliyev Azərbaycana qarşı.* AİHM-in 09 noyabr 2010-cu il tarixli qərarı. İş №37138/0.

[26] CPM-in 158.4-cü maddəsinə əsasən, qətimkan tədbiri qismində həbsdə saxlama müddəti hesablanarkən təqsirləndirilən şəxsin və onun müdafiəçisinin cinayət işinin materialları ilə tanış olma müddəti nəzərə alınmır.

[27] "Məhkəmə təkrar olaraq qeyd edir ki, həbsdə saxlamanın "qanunilik" tələblərinə cavab verə bilməsi üçün, o, daxili qanunvericilikdə öz əksini tapmalı və həmin qanunvericilik Konvensiyaya uyğun olmalıdır [...]. İndiki halda Hökumətin ərizəçinin həbsdə saxlanmasının 19 aprel 2007-ci ildən sonra davam etməsini, onun sözügedən müddət ərzində işin materiallarına çıxış imkanının olması faktı ilə əsaslandırmaq üçün CPM-in 158.4-cü maddəsinə əsaslandığı məlum olur. Məhkəmə bu arqumenti qəbul edə bilməz. Birincisi, təqsirləndirilən şəxslərə CPM-in 284-289-cu və 292-ci maddələrinə əsasən işin materiallarına çıxış imkanının istintaqın başa çatmasından sonra, lakin ittiham aktının tərtib edilərək cinayət işinin məhkəməyə təqdim edilməsindən əvvəl verildiyi məlum olur [...]. Hökumət, bu kimi hallarda, cinayət işinin məhkəməyə göndərilməsindən sonra ərizəçinin həbsdə saxlanmasının CPM-in 158.4-cü maddəsi ilə necə əsaslandırıldığını izah edə bilməmişdir. İkincisi, Məhkəmə həmin müddəanı təhlil edərək, ərizəçinin məhkəmə qərarı olmadan həbsdə saxlanmasına əsas kimi necə təfsir edilə bildiyini heç bir halda başa düşməmişdir. Nəhayət, hətta bu müddəanın ərizəçinin həbsinin davam etməsinə əsas verdiyi fərz edilsə belə, həmin əsas 5-ci maddənin 1-ci bəndinə bütünlüklə yad olan məsələlərə əsaslanılaraq verilmişdir [...].. Beləliklə, həmin müddəaya əsaslanan həbsdə saxlama 5-ci maddənin 1-ci bəndinin tələblərinə müvafiq hesab edilə bilməz [...]".

[28] Bax: *Rafiq Əliyev Azərbaycana qarşı (Rafig Aliyev v. Azerbaijan)*, AİHM-in 6 dekabr 2011-ci il tarixli qərarı Ərizə № 45875/06.

[29] Bax: *Muradverdiyev Azərbaycana qaşı (Muradverdiyev v. Azerbaijan)*, AİHM-in 9 dekabr 2010-cu il tarixli qərarı. Ərizə № 16966/06.

Xüsusilə, *Rafiq Əliyev Azərbaycana qarşı* işində AİHM ərizəçinin həbs müddətinin uzadılmasına dair məhkəmə proseslərində şəxsən iştirak edə bilmədiyindən məhkəmənin AİHK-in 5-ci maddəsini pozduğuna dair qərara gəlib.[30]

***Azərbaycan məhkəmələrinin həbs qətimkan tədbirinin tətbiqi təcrübələri.*** Müşahidənin nəticələri göstərir ki, məhkəmələr həbs qətimkan tədbirinin seçilməsini heç də bütün hallarda əsaslandırmır[31]. Layihə qrupu hazırlıq iclasları zamanı bu kimi müstəsna tədbirin ağlabatanlığını qiymətləndirmədən həbs müddətinin uzadılmasına dair verilən qərarlarla bağlı 2010-cu ildə müşahidə edilən məhkəmə prosesləri ilə müqayisədə hər hansı əhəmiyyətli bir müsbət hal müşahidə etməyib. Hesabat dövrü ərzində hakimlər bir çox hallarda müdafiə tərəfinin alternativ tədbirlərin tətbiqi ilə bağlı vəsatətlərini və əlaqədar sübutları kifayət qədər qiymətləndirməyib. Ümumiyyətlə, müşahidə edilən hazırlıq iclaslarından görünür ki, məhkəmələr həbs qətimkan tədbirinin dəyişdirilmədən saxlanılması barədə qərar qəbul edərkən təqsirləndirilən şəxsin spesifik vəziyyətini və onun azadlığının məhdudlaşdırlmasına əsas ola bilən halları kifayət qədər təhlil etmir.

Aşağıdakı cədvəllərdə Layihə qrupunun müşahidə etdiyi[32] işlərdə qətimkan tədbirlərin seçilməsi göstərilib. 2009, 2010 və 2011-ci illər üzrə müqayisəli cədvəl məhkəmə proseslərinin başlanmasına qədər qətimkan tədbiri kimi həbsin seçilməsində əhəmiyyətli artımın olduğunu göstərir.

---

[30] Bax: *Rafiq Əliyev Azərbaycana qarşı (Rafig Aliyev v. Azerbaijan),* AİHM-in 6 dekabr 2011-ci il tarixli qərarı, Ərizə № 45875/06 […]"Doğrudur ki, ərizəçinin vəkilləri apellyasiya şikayəti vasitəsilə öz arqumentlərini yazılı şəkildə bildirmək imkanına malik idi. Lakin bu fakt özlüyündə tərəflərin bərabərliyinin təmin olunduğunu göstərmir. Məhkəmə qeyd edir ki, dövlət ittihamçısının ərizəçinin həbsini əsaslandıran arqumentləri ərizəçi və ya onun vəkillərinə təqdim edilməyib, bu da onları dövlət ittihamçısı tərəfindən həbsin əsaslandırılması üçün istinad edilən hallara şifahi və ya yazılı qaydada münasibətini bildirmək vasitəsilə həbsin tətbiqini səmərəli şəkildə mübahisələndirmək imkanından məhrum edib. […] Hər bir halda məhkəmələr ərizəçinin yazılı şəkildə təqdim etdiyi və özünün həbsinə qarşı irəli sürdüyü spesifik sübutlara heç bir münasibət bildirməyib […], baxmayaraq ki, həmin sübutlar əlaqəsiz və ya əhəmiyyətsiz görünmürdü" […].

[31] Bax: AİHK-ın 5-ci maddəsinin tələbləri

[32] Təhlil qətimkan tədbirlərinə dair məlumatın mövcud olduğu 326 məhkəmə işinə dair məlumat əsasında aparılıb.

**12-ci Cədvəl: Monitorinqi aparılmış məhkəmə işlərində qətimkan tədbirlərin seçilməsi**[33]




**13-cü Cədvəl: Bakıda qətimkan tədbirlərinin seçilməsi**




[33] CPM-in 154-cü maddəsi bu qətimkan tədbirlərini nəzərdə tutur: həbs, ev dustaqlığı, girov, başqa yerə getməmək barədə iltizam, şəxsi zaminlik, təşkilatın zaminliyi, polisin nəzarəti altına vermə, nəzarət altına vermə, komandanlığın müşahidəsi altına vermə, vəzifədən kənarlaşdırma. Həbs, ev dustaqlığı və girov qətimkan tədbirləri yalnız məhkəmələr tərəfindən tətbiq olunduğu halda, digər qətimkan tədbirləri müvafiq olaraq, birbaşa səlahiyyətli, yaxud istintaqa rəhbərlik edən müstəntiq və ya prokuror tərəfindən tətbiq edilir.

**14-cü Cədvəl: Bölgələrdə qətimkan tədbirlərinin seçilməsi**




**15-ci Cədvəl: Müqayisəli diaqram – 2009, 2010 və 2011-ci illərdə qətimkan tədbirlərinin seçilməsi**



**16-cl Cədvəl: Müqayisəli diaqram – Bakıda qətimkan tədbirlərinin seçilməsi**




**17-ci Cədvəl: Müqayisəli diaqram –Bölgələrdə qətimkan tədbirlərinin seçilməsi**



Bununla belə, müsbət məqam kimi, prokurorluğun təqdim etdiyi statistik məlumata əsasən, 2011-ci ildə ölkə səviyyəsində həbs qətimkan tədbirinin ümumi faiz nisbəti digər qətimkan tədbirləri ilə müqayisədə 37.92 % olub. Prokurorluq və Ofisin statistik məlumatları arasındakı uyğunsuzluq bununla izah edilir ki, Ofisin 2011-ci ilin Proqramı daha çox ağır cinayətlərə dair məhkəmə proseslərini əhatə edib və bu cür işlərdə həbs qətimkan tədbiri daha çox tətbiq edilir.

### *iii) Vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququ*

***Vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququnun anlayışı.*** ATƏT öhdəlikləri və AİHK-a əsasən, cinayət törətməkdə təqsirləndirilən hər kəs, şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək hüququna malikdir.[34]

Bu hüquq cinayət prosesinin bütün mərhələlərinə, o cümlədən ibtidai istintaq mərhələsinə şamil olunur. Azərbaycan qanunvericiliyinə əsasən, şübhəli şəxslər tutulduğu andan müdafiəçilə təmin olunmaq hüququna malikdir.[35] AİHM, AİHK-nın 6-cı maddəsinin 3-cü bəndinə əsasən təqsirləndirilən şəxslərin "nəzəri və ya xəyali yox, praktiki və səmərəli", hüquqi yardım almaq hüququna malik olduğunu təsbit edib. AİHM, AİHK-nın "təyin etməyə" yox, "yardım almağa" istinad etdiyini qeyd edir, çünki vəkilin səmərəli hüquqi yardım göstərməsinə maneçilik törədilməsi və ya onun öz vəzifələrini icra etmək üçün kifayət qədər bacarıqlı olmaması ehtimalına görə, sadəcə "təyin etmə" səmərəli vəkillə təmin olunma hüququnu təmin etmir.

Bu barədə AİHM müəyyən edib ki, […] "Dövlət hüquqi yardım məqsədilə təyin olunmuş vəkilin fəaliyyətindəki hər çatışmazlığa görə məsuliyyət daşıya bilməz". Bununla belə, əgər vəkil açıq-aşkar şəkildə səmərəli yardım göstərmirsə, yaxud bu barədə məlumat başqa yolla səlahiyyətli orqanların diqqətinə çatdırılırsa, bu halda həmin orqanlar təqsirləndirilən şəxsin vəkillə səmərəli şəkildə təmsil olunmaq hüququndan istifadə etməsini təmin etmək üçün tədbirlər görməlidir."[…].[36]

***AİHM-nin müvafiq presedent hüququ.*** Azərbaycan Respublikasının Konstitusiyası[37] və "Vəkillər və Vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu[38] Azərbaycanda səmərəli

---

[34] AİHK 6.3-cü maddəsi (c) və 1991-ci ilin Moskva görüşünün Sənədi (23.1), Qoşma I.
[35] CPM-in 90.7.2-ci maddəsi.
[36] bax: *Artiko İtaliyaya qarşı (Artico v. Italy,)* AİHM-in 13 may 1980-ci il qərarı, 33-37-ci bölmələr, Seriya A № 37, və *Kamasinski Avstriyaya qarşı* (*Kamasinski v. Austria)*, AİHM-in 19 dekabr 1989-cu il tarixli qərarı, 65-ci bölmə, Seriya A, № 168.
[37] Konstitusiyanın 61.2-ci maddəsinə əsasən, "Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.." Bundan əlavə, Konstitusiyanın 61.3-cü maddəsinə əsasən, "Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır."

pulsuz hüquq yardımın göstərilməsinin əsaslarını müəyyən etsə də, AİHM-nin presedent hüququ praktikada mövcud olan çatışmazlıqları vurğulamaqdadır.

*Hüseyn və digərlərinin Azərbaycana qarşı* (*Huseyn and others v. Azerbaijan)*,[39] işində AİHM, birinci, üçüncü və dördüncü ərizəçinin ibtidai istintaq dövrünün ilk günlərində vəkillə təmin olunmaq hüquqlarının məhdudlaşdırılmasının onların müdafiə hüquqlarının və AİHK-nın 6-cı maddəsinin 3-cü bəndinin pozulmasına səbəb olduğuna dair qənaətə gəlib. AİHM-in qərarında qeyd edilir: […]"Məhkəmənin sonradan aydınlaşdırdığı kimi, ədalətli məhkəmə araşdırması hüququnun kifayət qədər praktiki və səmərəli olması üçün, AİHK-nın 6-cı maddəsinin 1-ci bəndi nəzərdə tutur ki, işin xüsusi hallarında bu hüququn məhdudlaşdırılmasını tələb etdiyi məcburedici səbəblər olmadıqda, bir qayda olaraq şübhəli şəxs polis tərəfindən ilk dindirilmə anından vəkillə təmsil olunmaq hüququna malikdir. Məcburedici səbəblərin müstəsna hallarda vəkillə təmin etməkdən imtina edilməsinə əsas verdiyi hallarda belə, əsaslandırmanın nədən ibarət olmasından asılı olmayaraq, təqsirləndirilən şəxsin 6-cı maddə ilə nəzərdə tutulan hüquqlarına əsassız müdaxilə edilə bilməz." […].

Məhkəmə, təqsirləndirilən şəxsin vəkillə təmin olunmadan polis tərəfindən şübhəli şəxs qismində dindirilərkən öz əleyhinə verdiyi ifadələrindən həmin şəxsin əleyhinə istifadə edərək ittiham hökmü çıxardıqda, həmin şəxsin hüquqlarını pozmuş olur.[40] Şübhəli şəxsin həbsdə olduğu müddət ərzində susduğu və dindirilmədiyi hallarda belə onun tutulduğu andan hüquqi yardım almaq hüququnun məhdudlaşdırılması, Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci və 3-cü (c) bəndlərinin tələblərinə cavab verməyə bilər.[41]

Bundan əlavə, Avropa Məhkəməsi *Hüseyn və digərlərinin Azərbaycana qarşı* (*Huseyn and others v. Azerbaijan)* işində müəyyən etdi ki, […] " Görünür ki, birinci, üçüncü və dördüncü ərizəçi həbsdə olduqları ilk bir neçə gün ərzində hüquqi yardımdan faydalanmadan dindirilib və cinayət işinin materiallarına daxil edilmiş bəzi ifadələr veriblər. Onlardan hər hansı birinin tutulduqdan sonra açıq şəkildə vəkillə təmsil olunmaq hüquqlarından imtina etməsi məlum deyildir. Məhkəmə bu məsələ ilə bağlı mövcud məlumata istinad edərək ərizəçilərin həmin dövrdə vəkillə təmin olunmalarının növbəti proseslərə mütləq təsirini və həmin dövrdə vəkilin olmamasının onların müdafiə hüquqlarına qarşısı alına bilinməyəcək qədər təsir edib-etmədiyini təxmin edə bilməz. Bununla

---

[38] Vəkillər və vəkillik fəaliyyəti haqqında qanunun 20-ci maddəsinə əsasən, "Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət işləri üzrə müttəhimlərə və məhkəmədə hüquqi yardıma ehtiyacı olan aztəminatlı şəxslərə hər hansı bir məhdudiyyət qoyulmadan vəkil tərəfindən göstərilən hüquqi yardım dövlət hesabına həyata keçirilir."

[39] Bax: *Hüseyn və digərləri Azərbaycana qarşı (Huseyn and others v. Azerbaijan)*, AİHM-nin 26 iyul 2011-ci il tarixli qərarı, №. 35485/05, 45553/05, 35680/05 və 36085/05. 171 – 173-cü bölümlər.

[40] Bax: *Salduz Türkiyəyə qarşı* (*Salduz v. Turkey) №* 36391/02, 55-ci bölmə, AİHK 2008.

[41] Bax: *Dayanan Türkiyəyə qarşı* (*Dayanan v. Turkey)*, № 7377/03, 32-33-cü bölmələr, AİHK 2009.

belə, Məhkəmə ilkin hüquqi yardıma bu cür məhdudiyyətin ərizəçilərin müdafiə hüquqlarına təsir etdiyini qeyd edir. Nəticə etibarilə, Məhkəmə birinci, üçüncü və dördüncü ərizəçinin ibtidai istintaq dövrünün ilk bir neçə günündə vəkillə təmin olunma hüquqlarının məhdudlaşdırılması nəticəsində onların müdafiə hüquqlarının pozulduğu qənaətinə gəlir [...].”[42]

***Hüquqi yardımla təmin olunma.*** Ofis əvvəlki hesabatlarında Vəkillər Kollegiyasına keyfiyyətli hüquqi müdafiə xidmətləri göstərən vəkillərin sayının artırılmasına dair səylər göstərməsini tövsiyə edib. Vəkillər Kollegiyasının məlumatına əsasən, 2011-ci ildə Kollegiyanın üzvlərinin sayı 738 təşkil edib:[43] Onlardan 544-ü Bakıda və 194-ü ölkənin digər regionlarında fəaliyyət göstərib. Beləliklə, vəkillərin təqribən dörddə biri Azərbaycan əhalisinin dörddə üçündən çoxuna hüquqi yardım göstərib.[44]

Layihə qrupunun 2011-ci ildə  müşahidə etdiyi işlərin 52 %-də təqsirləndirilən şəxslər dövlət tərəfindən təyin olunan müdafiəçi ilə müdafiə olunub. Bu rəqəm Bakıda 57%, regionlarda isə 39% olub. Ümumiyyətlə hüquqi yardımın göstərilmədiyi işlərin sayı da paytaxt Bakı ərazisindən xeyli fərqlənir: 28% və regionlarda 46%.

---

[42] Bax: Hüseyn və digərləri Azərbaycana qarşı (Huseyn and others v. Azerbaijan), AİHM-nin 26 iyul 2011-ci il tarixli qərarı, №. 35485/05, 45553/05, 35680/05 və 36085/05.
[43] Azərbaycan qanunvericiliyinə əsasən yalnız Kollegiyanın üzvləri cinayət işlərində müdafiəçi qismində çıxış edə bilər.
[44] Azərbaycanda 2011-ci il üzrə əhalinin sayı: 9,111,000 nəfər. http://en.president.az/azerbaijan/population/
Bakıda əhalinin sayı: 2,045,818 nəfər. http://www.azstat.org/region/az/002shtml

**18-ci Cədvəl: Monitorinq olunmuş məhkəmələrdə şəxslərə hüquqi xidmətlərin göstərilməsi**




| MƏHKƏMƏLƏR | Müqavilə əsasında göstərilən hüquq xidmətləri | Dövlət hesabına təyin olunmuş hüquqi yardım | Hüquqi xidmət göstərilməyib |
|---|---|---|---|
| Ali Məhkəmə | 7 | 0 | 0 |
| Bakı Apellyasiya Məhkəməsi | 7 | 1 | 13 |
| Gəncə Apellyasiya Məhkəməsi | 2 | 1 | 0 |
| Gəncə Ağır Cinayətlər Məhkəməsi | 6 | 22 | 4 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 1 | 0 | 2 |
| Bakı Ağır Cinayətlər Məhkəməsi | 20 | 46 | 18 |
| 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi | 0 | 0 | 5 |
| 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi | 1 | 0 | 1 |
| Abşeron rayon məhkəməsi | 0 | 8 | 21 |
| Binəqədi rayon məhkəməsi | 2 | 11 | 9 |
| Qaradağ rayon məhkəməsi | 2 | 7 | 4 |
| Göyçay rayon məhkməsi | 2 | 0 | 0 |
| Kəpəz (Gəncə) rayon məhkəməsi | 0 | 4 | 0 |
| Nizami (Gəncə) rayon məhkəməsi | 1 | 1 | 3 |
| Hacıqabul rayon məhkəməsi | 0 | 0 | 2 |
| İsmayıllı rayon məhkəməsi | 0 | 0 | 2 |
| Xətai rayon məhkəməsi | 1 | 11 | 4 |
| Xəzər rayon məhkəməsi | 0 | 1 | 1 |
| Lənkəran Ağır Cinayətlər Məhkəməsi | 3 | 5 | 2 |
| Lənkəran rayon məhkəməsi | 0 | 1 | 1 |

**19-cu Cədvəl: Bakıda Monitorinqi aparılmış işlər – hüquqi xidmətlərin göstərilməsi**




| MƏHKƏMƏLƏR | Müqavilə əsasında göstərilən hüquqi xidmətlər | Dövlət hesabına təyin olunmuş hüquqi yardım | Hüquqi xidmət göstərilməyib |
|---|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 7 | 1 | 13 |
| Bakı Ağır Cinayətlər Məhkəməsi | 20 | 46 | 18 |
| Binəqədi rayon məhkəməsi | 2 | 11 | 9 |
| Qaradağ rayon məhkəməsi | 2 | 7 | 4 |
| Xətai rayon məhkəməsi | 1 | 11 | 4 |
| Xəzər rayon məhkəməsi | 0 | 1 | 1 |
| Nərimanov rayon məhkəməsi | 6 | 35 | 4 |
| Nəsimi rayon məhkəməsi | 10 | 20 | 14 |
| Nizami rayon məhkəməsi | 2 | 26 | 8 |
| Səbayıl rayon məhkəməsi | 4 | 10 | 16 |
| Sabunçu rayon məhkəməsi | 1 | 22 | 12 |
| Suraxanı rayon məhkəməsi | 1 | 31 | 2 |
| Yasamal rayon məhkəməsi | 2 | 3 | 5 |
| **CƏMİ:** | **58** | **224** | **111** |

**20-ci Cədvəl: Bölgələrdə monitorinqi aparılmış işlər – hüquqi xidmətlərin göstərilməsi**




| MƏHKƏMƏLƏR | Müqavilə əsasında göstərilən hüquqi xidmətlər | Dövlət hesabına təyin olunmuş hüquqi yardım | Hüquqi xidmət göstərilməyib |
|---|---|---|---|
| Gəncə Apellyasiya Məhkəməsi | 2 | 1 | 0 |
| Gəncə Ağır Cinayətlər Məhkəməsi | 6 | 22 | 4 |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 1 | 0 | 2 |
| Abşeron rayon məhkəməsi | 0 | 8 | 21 |
| Göyçay rayon məhkəməsi | 2 | 0 | 0 |
| Kəpəz (Gəncə) rayon məhkəməsi | 0 | 4 | 0 |
| Nizami (Gəncə) rayon məhkəməsi | 1 | 1 | 3 |
| Hacıqabul rayon məhkəməsi | 0 | 0 | 2 |
| İsmayıllı rayon məhkəməsi | 0 | 0 | 2 |
| Lənkəran Ağır Cinayətlər Məhkəməsi | 3 | 5 | 2 |
| Lənkəran rayon məhkəməsi | 0 | 1 | 1 |
| Şəki Apellyasiya Məhkəməsi | 3 | 1 | 0 |
| Şəki Ağır Cinayətlər məhkəməsi | 0 | 0 | 4 |
| Şəki rayon məhkəməsi | 0 | 0 | 1 |
| Sumqayıt şəhər məhkəməsi | 3 | 12 | 21 |
| **CƏMİ:** | **21** | **55** | **63** |

**21-ci Cədvəl: Müqayisəli diaqram – 2009, 2010 və 2011-ci illərdə Bakı və bölgələrdə hüquq xidmətlərinin göstərilməsi**




**22-ci Cədvəl: Müqayisəli diaqram – Bakıda göstərilən hüquq xidmətləri**



**23-cü Cədvəl: Müqayisəli diaqram – Bölgələrdə hüquqi yardımın göstərilməsi**[45]




***Müdafiəçi seçmək hüququ.*** CPM-in 91.5.7-ci maddəsinə əsasən, təqsirləndirilən şəxsin müstəqil şəkildə özünə müdafiəçi seçmək və onun səlahiyyətinə xitam vermək hüququ vardır. ATƏT-in iştirakçı dövlətləri şəxsin öz seçdiyi müdafiəçi ilə təmsil olunmaq hüququnu ədalətli və açıq məhkəmə araşdırması hüququnun tərkib hissəsi kimi tanıyır.[46] Vəkillə təmsil olunma hüququndan da imtina oluna bilər, lakin bu halda, AİHM həmin imtinanın […]" açıq-aydın şəkildə və onun əhəmiyyətinə müvafiq olaraq, minimum təminatları əks etdirməklə" […] həyata keçirilməsini tələb edir.[47]

Bir sıra işlərdə hakimlər təqsirləndirilən şəxsə müdafiəçi seçmək hüququnu izah etməyib. Layihə qrupu iki məhkəmə prosesində hakimlərin təqsirləndirilən şəxsə, onların aydın şəkildə öz şəxsi seçimlərinə əsasən vəkil tələb etmələrinə baxmayaraq, dövlət tərəfindən təyin olunmuş vəkillər təqdim etdiyini müşahidə edib. Başqa bir məhkəmə prosesində hakim təqsirləndirilən şəxsin şəxsi arzusu ilə təyin etdiyi vəkilə, müştərisini məhkəmədə təmsil etmək səlahiyyətlərini təsdiq edən sənədi olmadığından, onu müdafiə etməyə icazə verməyib. Təqsirləndirilən şəxsin öz arzusuna əsasən müdafiəçi seçmək hüququnu təmin etmək üçün məhkəmə prosesini təxirə salmaq əvəzinə, hakim təqsirləndirilən şəxsə artıq məhkəmə baxışında iştirak edən, dövlət hesabına təyin olunan

---

[45] Gəncə, Sumqayıt, Hacıqabul, İsmayıllı, Göyçay, Abşeron, Lənkəran və Şəki regionlarında.
[46] Vyana görüşünün yekun sənədi, VyanaŞ 1989-cu il, 13.9-cu bölmə.
[47] Bax: *Annanyev Rusiyaya qarşı* (*Annanyev v.Russia)* [2009] EİHK 1241, 38-ci bölmə.

vəkillə təmsil olunmağını təklif edib. Başqa bir işdə, hakim məhkəmə prosesinin gecə baş tutması səbəbindən, təqsirləndirilən şəxsin öz vəkili ilə təmsil olunmasına icazə verməyib. Hakimin təqsirləndirilən şəxsi dövlət tərəfindən təyin olunan vəkillə təmin etməsinə baxmayaraq, təqsirləndirilən şəxs özünü təmsil etmək üçün şəxsi vəkilinin təyin olunmasını tələb edib. Bununla belə, hakim təqsirləndirilən şəxsin seçdiyi vəkilin iştirakını təmin etmək üçün prosesi təxirə salmayıb.

***Dövlət tərəfindən təyin olunmuş vəkillərin göstərdiyi hüquqi yardımın keyfiyyəti.*** Layihə qrupu əvvəlki illərdə olduğu kimi dövlət hesabına təyin olunmuş vəkillərin göstərdiyi hüquqi yardımın kifayət qədər keyfiyyətli olmadığını qeyd edir. Müşahidə edilmiş məhkəmə işlərinin bir qismində hakimlər hüquqi yardım almaq hüququnu yalnız rəsmi olaraq təmin edib və dövlət tərəfindən təyin olunmuş vəkillərin göstərdiyi hüquqi yardım keyfiyyətsiz və bu səbəbdən də səmərəsiz olub. Bir çox hallarda hakim ilk dəfə məhkəmə baxışı zamanı təqsirləndirilən şəxslərə dövlət tərəfindən təyin olunmuş vəkilləri təqdim edib və onlara işin halları ilə tanış olmaq üçün kifayət qədər vaxt verməyib.

Layihə qrupu bir məhkəmə işində vəkilin məhkəmə baxışı zamanı işin halları ilə tanış olmadığını açıq şəkildə vurğuladığını qeyd edib. Buna baxmayaraq o, təqsirləndirilən şəxsin həmin məhkəmə baxışında ifadə verməsini təklif edib. Layihə qrupu eyni zamanda təqsirləndirilən şəxsin açıq şəkildə dövlət tərəfindən təyin olunan vəkil tərəfindən göstərilən hüquqi yardım barəsində şikayət etdiyi, hakimin isə sözügedən vəkili əvəzləmək üçün hər hansı bir tədbir görmədiyi məhkəmə işlərini müşahidə edib. Bu məhkəmə işlərinin bir çoxunda dövlət tərəfindən təyin olunmuş vəkillər məhkəmə proseslərinin gedişatı zamanı susmağa üstünlük verərək məhkəmə proseslərində heç bir vəsatət qaldırmayıblar. Layihə qrupu eyni zamanda dövlət tərəfindən təyin olunmuş vəkillərin məhkəmə proseslərində iştirak etmədikləri və ya hakimin məhkəmə hökmünü elan etməsindən öncə məhkəmə iclas zalını tərk etdikləri halları qeyd edib. Bundan başqa, bəzi işlərdə dövlət tərəfindən təyin olunmuş vəkillər açıq şəkildə təqsirsizlik prezumpsiyasına və vəkillərin peşə etikasına zidd olaraq təqsirləndirilən şəxslərin əleyhinə ifadələr səsləndirib.[48] Bir məhkəmə işində, vəkil açıq-aydın məhkəmə işinin nəticələri barədə öz fikrini səsləndirib və öncədən ittiham hökmünün çıxarılmasını ehtimal edib. Həmin işdə təqsirləndirilən şəxs proseslərin uzun çəkməsindən şikayət etdikdə, vəkil bu müddətin təqsirləndirilən şəxsin azadlıqdan məhrumetmə cəzasının müddətindən çıxacağını qeyd edib. Layihə qrupu eyni zamanda dövlət tərəfindən təyin olunmuş vəkillərin

---

[48] Bir halda dövlət tərəfindən təyin olunmuş vəkil təqsiri etiraf etmə barədə növbəti fikri səsləndirib: […] Əgər sən bu davada iştirak etməmisənsə, məhkəmədə nə işin var?" […] İttiham olunan şəxsin təqsiri etiraf etmədiyi başqa bir işdə dövlət tərəfindən təyin olunan vəkil qeyd edib: […] "Əslində o (təqsirləndirilən şəxs) təqsirini etiraf edir, o sadəcə olaraq bu hüquqi termini başa düşmür." […].

davranışlarının onların müştərilərinin mənafeləri ilə üst-üstə düşmədiyi işləri müşahidə edib. Xüsusilə də bir məhkəmə işində, hakimin ilkin məhkəmə prosesində təqsirləndirilən şəxsə təqdim etdiyi dövlət tərəfindən təyin olunmuş vəkil təqsirləndirilən şəxsə münasibətdə məhdudlaşdırıcı tədbir kimi həbs qətimkan tədbirinin seçilməməsindən təəccübləndiyini bildirib.

Hakimlərin səmərəli hüquqi yardım təmin etməklə ədalətli məhkəmə araşdırması hüququna riayət etməsi öhdəliyi ilə bağlı qeyd edilməlidir ki, Layihə qrupuna məlum olduğu qədər, yuxarıda qeyd olunan məhkəmə işlərinin heç birində hakimlər vəkillərin peşə etikası və müştərilərinə qarşı vəzifələrinin yerinə yetirilməməsi ilə bağlı Vəkillər Kollegiyasına müraciət etməyib.

### *iv) Tərəflərin bərabərliyi*

***Tərəflərin bərabərliyi hüququnun əsasları.*** Tərəflərin bərabərliyi prinsipinə əsasən, hər bir tərəf, onu qarşı tərəfə münasibətdə əhəmiyyətli dərəcədə əlverişsiz vəziyyətə salmayan şəraitdə öz işini təqdim etmək üçün ağlabatan imkanlara sahib olmalıdır.[49] Bununla da, məhkəmə hər iki tərəfə özlərinin sübutlarını, arqumentlərini və digər tərəfin sübut və arqumentlərinə dair şərh vermələrinə icazə verir.[50] Cinayət prosessual anlamında bura təqsirləndirilən şəxsin onun əleyhinə ifadə verən şahidləri dindirmək və əleyhinə ifadə verən şahidlərə tətbiq edilən eyni şərtlərlə öz şahidlərini cəlb etmək və onları dindirmək hüququ daxildir.[51] Bu eyni zamanda təqsirləndirilən şəxsin günahını təsdiq edən və ya ona bəraət qazandıra bilən bütün sübutlara da tətbiq olunur.

AİHK-nın 6-cı maddəsinə əsasən, cinayət əməlində təqsirləndirilən hər kəs bir qayda olaraq, özünə qarşı cinayət ittihamının araşdırıldığı məhkəmə prosesində səmərəli şəkildə təmsil olunmaq və iştirak etmək hüququna malik olmalıdır.[52] Bundan əlavə, cinayət əməlində təqsirləndirilən şəxslərin müdafiəyə hazırlaşmaq üçün ağlabatan vaxt və şəraitlə təmin olunmaq hüququ vardır.[53] Eyni zamanda, təqsirləndirilən şəxsin vəkili ittiham hökmü, şəxsin əleyhinə və xeyrinə olan sübutlar da daxil olmaqla, işlə əlaqədar bütün materiallarla tanış olmaq imkanına malik olmalıdır.[54]

---

[49] Bax: *Nideröst-Huber İsveçrəyə qarşı* (*Nideröst-Huber v. Switzerland)*, AİHM-nin 18 fevral 1997-ci il qərarı, 23-cü bölmə, Hesabat 1997-I.

[50] Bax: *Lobo Maçodo Portuqaliyaya qarşı (Lobo Machado v. Portugal)*, AİHM-nin 20 fevral 1996-cı il qərarı, 31-ci bölmə, Hesabat 1996-I.

[51] Bu spesifik hüquqlar eyni zamanda AİHK 6.3-cü (d) maddəsi ilə də nəzərdə tutulub. Orada qeyd olunur: "Cinayət törətməkdə təqsirləndirilənhər kəs, ən azı aşağıdakı hüquqlara malikdir: " […] (d) onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırmaq və dindirməyə nail olmaq;" […]

[52] Bax: *Kolotsa İtaliyaya qarşı (Colozza v. Italy)*, AİHM-nin 12 fevral 1985-ci il qərarı, 27-ci bölmə, Seriya A №. 89, və *Stenford Birləşmiş Krallığa qarşı* (*Stanford v. the United Kingdom)*, AİHM-nin 23 fevral 1994-cü il qərarı, 26-cı bölmə, Seriya A № 282-A.

[53] AİHK-nın 6.3-cü (b) maddəsi

[54] Bax: *Yesperz Belçikaya qarşı (Jespers v Belgium)* , AİHM-nin 14 dekabr 1981-ci il qərarı, 27 DR 61.

***AİHM-nin müvafiq presedent hüququ.*** *Hüseyn və digərləri Azərbaycana qarşı* (*Huseyn and others v. Azerbaijan)*,[55] işində, AİHM Azərbaycan Hökümətinin AİHK-nın 6-cı maddəsini pozmasını təsbit edib. Avropa Məhkəməsi müəyyən edib ki, ərizəçilər yekun arqumentlərini təqdim etmək hüququndan istifadə edə bilməyib və bunun nəticəsində bu hüquqdan tam şəkildə istifadə edən prokuror qarşısında əlverişsiz vəziyyətə düşüb.[56]

***Təqsirləndirilən şəxsin onun əleyhinə ifadə vermiş şahidləri dindirmək hüququ.*** Layihə qrupu bəzi məhkəmə proseslərində ittiham tərəfinin əsas şahidlərinin məhkəmə proseslərində iştirak etmədiklərini, buna dair ittiham tərəfin yetərli səbəblər təqdim etmədiyini və nəticədə təqsirləndirilən şəxslərin həmin şahidləri dindirmək hüququndan məhrum edildiklərini qeyd edib. Bu kimi hallarda ittiham tərəfinin şahidlərinin iştirak etməməyinə izah olaraq, bir çox hallarda yetərli səbəblər göstərilməyib. Hakimlər şahidlərin iştirakını təmin etmək üçün məhkəmə baxışını təxirə salmaq əvəzinə, onların yazılı ifadələrinin məhkəmədə oxunması tələbini təmin edib və beləliklə də müdafiəçiləri birbaşa olaraq şahidləri dindirmə və sorğu-sual etmə imkanlarından məhrum edib.

Öncəki hesabatlarda olduğu kimi, hakimlərin "lazım gələrsə, məhkəmə prosesinin növbəti mərhələlərində məhkəmə tərəfindən tədqiq ediləcəyini" qeyd edərək təqsirləndirilən şəxslərin sübutlarını təqdim və tədqiq etməklə bağlı vəsatətlərini naməlum səbəblərdən vaxtında nəzərə almadığı məhkəmə işləri də müşahidə edilib. Bununla belə, bu kimi işlərdə məhkəmə yalnız prokurorluq tərəfindən təqdim olunan sübutlara istinad edib. Nəticə etibarilə, bu işlərin bəzilərində məhkəmə proseslərində yalnız təqsirləndirilən şəxsin əleyhinə ifadə verən şahidlər iştirak edib və məhkəmə bəraətverici sübutların tədqiq edilməsinə icazə verməyib.

***Müdafiəyə hazırlaşmaq üçün yetərli vaxt və şəraitlə təmin olunmaq hüququ.*** Layihə qrupu prokurorluğun müdafiə tərəfinə nisbətən daha üstün vəziyyətdə olduğu işlər barədə məlumat verib. Xüsusi olaraq, Layihə qrupu hakimlərin təqsirləndirilən şəxslərin ya ifadə verdikləri zaman müdaxilə etdikləri, yaxud təsirləndirilən şəxslərin və ya onların şahidlərinin ifadə verdikləri zaman prokurorluğun müdaxiləsinin qarşısını almaq üçün hər hansı bir tədbir görmədiyi məhkəmə işlərini

---

[55] Bax: *Hüseyn və digərləri Azərbaycana qarşı (Huseyn and others v. Azerbaijan)*, AİHM-nin 26 iyul 2011-ci il tarixli qərarı, Ərizələr № 35485/05, 45553/05, 35680/05 və 36085/05.

[56] Yuxarıdakı 55 saylı qeyddə, qərarın 190-cı bölməsi: […]" Məhkəmə qeyd edir ki, bu işdə ittiham tərəfinin yekun çıxışına imkan yaradılması üçün məhkəmə iclasları iki dəfə təxirə salınıb, sonradan ittiham tərəfi məhkəmənin və ya müdafiə tərəfinin müdaxiləsi və ya etirazı olmadan iki məhkəmə iclası ərzində tam yekun nitqi ilə çıxış edib. Digər tərəfdən, birinci, ikinci və üçüncü şikayətçi yekun nitqi ilə çıxış etmək hüququnu həyata keçirə bilməyiblər, çünki vəkilləri onların adından bunu etməkdən imtina ediblər. Yuxarıda qeyd edildiyi kimi, vəkillərin imtinası onların səmərəli hüquq yardımı göstərmək imkanına malik olmadıqlarını göstərirdi, daxili məhkəmə isə bu məsələyə yetərincə diqqət yetirmədi. Özlüyündə vəkillərin faktiki imtinası şikayətçilərin yekun nitqi ilə çıxış etmək hüququndan imtina etmələrinə bərabər sayıla bilməz. Əksinə, şikayətçilər bu hüququ şəxsən həyata keçirmələri üçün israr etdilər, amma vəsatətləri rədd edildi. Müvafiq olaraq, yekun nitqi ilə çıxış etmək hüququndan açıq və ya dolayı şəkildə imtina etmədikləri halda məhkəmə icraatındakı bu qüsura görə şikayətçilər məsuliyyət daşıya bilməzlər" […].

müşahidə edib. Lakin, Layihə qrupu hakimin proses zamanı ittiham tərəfinin sübutlar və hüquqi arqumentlər irəli sürməsinə icazə vermədiyi heç bir məhkəmə işi ilə rastlaşmayıb. Bir iş üzrə, hakim polisin təsirləndirilən şəxsin əleyhinə təqdim etdiyi sübutu müdafiə tərəfinə təqdim etməyib. Başqa bir işdə, hakim təqsirləndirilən şəxsin onun əleyhinə olan sübuta dair şərh vermək imkanını məhdudlaşdıraraq, təqsirləndirilən şəxsə Prokurorluq tərəfindən təqdim olunan ekspert rəyini açıqlamayıb.

Layihə qrupu daha sonra bəzi işlərdə təqsirləndirilən şəxslərin ittiham aktını hazırlıq iclasından bir az əvvəl əldə etmələrini, hakimlərin müdafiə tərəfinə ittiham aktının mahiyyəti ilə tanış olmaları üçün əlavə vaxt verməmələrini və bunun nəticəsində təqsirləndirilən şəxslərin müdafiələrini lazımi qaydada təşkil etmək imkanından məhrum edildiyini qeyd edir. Bundan əlavə, bir sıra işlərdə hakimlər təqsirləndirilən şəxsin məhkəmə prosesləri başlamazdan öncə ittiham aktını vaxtında əldə edib-etmədiyini aydınlaşdırmayıb.[57]

### *v) Digər seçilmiş ədalətli məhkəmə araşdırması təminatlarına əməl edilməsi*

***Açıq məhkəmə araşdırması hüququ.*** CPM-in 27-ci maddəsinə əsasən, dövlət, peşə və kommersiya sirlərinin, habelə vətəndaşların şəxsi və ailə sirlərinin qorunmasını təmin etmək məqsədilə prosesləri qapalı keçirmək üçün mühüm əsaslar yoxdursa, Azərbaycan Respublikasında cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə ədalət mühakiməsi bütün məhkəmələrdə açıq aparılır.

***AİHM-in müvafiq presedent hüququ.*** *Hümmətov Azərbaycana qarşı* (*Hummatov v. Azerbaijan*)[58] işində AİHM apellyasiya prosesinin açıq keçirilməməsi, onun həbsxanada keçirilməsi səbəbindən AİHK-ın 6-cı maddəsinin 1-ci bəndinin pozulduğuna dair qərara gəlib. Yekun qərarında AİHM Apellyasiya Məhkəməsinin ərizəçinin apellyasiya proseslərinin həbsxanada keçirilməsinin zərərli təsirlərini tarazlaşdırmaq üçün əvəzləyici tədbirlər görməyə müvəffəq olmadığını nəzərə alıb. AİHM eyni zamanda proseslərin məhkəmə iclas zalının xaricində qapalı sessiyalarla keçirilməsini əsaslandırmaq üçün Apellyasiya Məhkəməsi tərəfindən yetərli sübutlara istinad edilmədiyini təsbit edib.

***Açıq məhkəmə araşdırması hüququna praktikada əməl edilməsi.*** Əvvəlki hesabatlarda olduğu kimi, Layihə qrupu 2011-ci ildə məhkəmələrin ümumiyyətlə açıq məhkəmə araşdırması hüququna

---

[57] CPM-in 322.1.10-cu maddəsinə əsasən, ilkin məhkəmə baxışı zamanı sədrlik edən hakim təqsirləndirilən şəxsə ittiham aktının verilib-verilmədiyini aydınlaşdırır. İttiham olunan şəxsə ittiham aktı verilməyibsə, məhkəmə prosesi təxirə salınmalıdır.

[58]Bax: *Hümmətov Azərbaycana qarşı( Hummatov v. Azerbaijan)*, 29 noyabr 2007-ci il tarixli qərar. Ərizə № 9852/03 və 13413/04.

əməl etdiklərini qeyd edib. Bununla belə, məhdud sayda məhkəmə işlərində məhkəmə iclas zallarının məhdud tutuma malik olması və ya hakimlərin məhkəmə baxışlarını öz otaqlarında keçirməsi faktları ictimaiyyətin proseslərdə iştirakının qarşısını alıb.[59]

Yuxarıdakı məsələlərlə əlaqədar olaraq və məhkəmə proseslərinin ictimaiyyətə açıq olmasına dair qeyd olunmalıdır ki, monitorinqi aparılmış məhkəmələrin əksəriyyəti bir çox hallarda məhkəmə sədrlərin baxdığı işlər istisna olaraq, digər məhkəmə işləri barədə məlumat dərc edib. Lakin, bəzi işlərdə baxılacaq işlərin siyahılarında proseslərin vaxtı barədə məlumat verilməyib.

***Tərcüməçi köməyindən pulsuz istifadə etmək hüququ***. Ədalətli məhkəmə araşdırması hüququna əsasən hər kəsin vaxtında, özünün başa düşdüyü dildə və əlehinə sürülən ittihamın mahiyyəti və səbəblərinin təfərrüatlarla məlumatlandırılması və məhkəmənin keçirildiyi dili başa düşmədiyi təqdirdə pulsuz tərcüməçi xidmətlərindən istifadə etmək hüququ var.[60] Layihə qrupu bəzi məhkəmə işlərində hakimlərin təqsirləndirilən şəxslərin tərcüməçi köməyindən istifadə etmək hüququnu tanımadıqlarını qeyd edib. Layihə qrupu təqsirləndirilən şəxsin ilkin təhqiqat zamanı tərcüməçinin olmadığından şikayətləndiyi bir məhkəmə işini və tərcüməçilərin köməyinin ittiham aktının məhkəmə prosesinin gedişatında təqsirləndirilən şəxslərə şifahi olaraq tərcümə etməklə məhdudlaşdırıldığı bir neçə məhkəmə işlərini müşahidə edib.[61]

***Öz əleyhinə ifadə verməmək hüququ və pis rəftara dair şikayətlərin araşdırılması.*** ATƏT öhdəlikləri və AİHK demokratik cəmiyyətin ən əsas dəyərlərindən biri kimi pis rəftarın hər hansı bir formasını qadağan edir.[62] Bununla da məhkəmənin xüsusən də təqsiri təsdiqləyən sübutların etiraf edilməsi, məsələn təqsirləndirilən şəxsin istintaq dövründə məcburiyyət qarşısında edə biləcəyi etiraflarla bağlı işgəncə və ya digər kobud, qeyri-insani, yaxud alçaldıcı hərəkətlərə dair iddiaların səmərəli araşdırılmasını təşkil etməyə dair pozitiv və qəti öhdəliyi vardır.[63] Milli qanunvericiliyə əsasən məhkəmə təzyiq altında əldə olunan sübutları qəbul etməməlidir.[64]

***AİHM-in müvafiq presedent hüququ.*** *Məmmədov Azərbaycana qarşı (Mammadov v. Azerbaijan)* işində Məhkəmə eyni zamanda ərizəçinin pis rəftar iddialarının səmərəli şəkildə araşdırılmaması səbəbindən AİHK-ın 3-cü maddəsinin prosessual tələblərinin pozulduğunu təsbit edib. AİHM

---

[59] Məsələn, dörd təqsirləndirilən şəxsin cəlb olunduğu ictimai maraq kəsb edən bir iş üzrə məhkəmə iclas zalına yalnız iyirmi nəfər daxil ola bilirdi. Bu da təqsirləndirilən şəxslərin açıq məhkəmə araşdırması hüququnu mübahisələndirirdi. Nəticədə, təqsirləndirilən şəxsin ailə üzvlərinin məhkəmə-iclas zalına girişi məhdudlaşdırılırdı.
[60] AİHK-ın 6.3 (a) 6.3 (b) maddələri.
[61] CPM-in 26.2-ci maddəsinə əsasən, təqsirləndirilən şəxs cinayət mühakimə icraatının aparıldığı dili başa düşmürsə məhkəmə təqsirləndirilən şəxsin başa düşdüyü dil üzrə tərcüməçi ilə təmin edir və təqsirləndirilən şəxsin müvafiq iş materialları ilə özünün başa düşdüyü dildə tanış ola bilməsini təmin edir.
[62] AİHK-ın 3-cü maddəsi, 1990-cı il Kopenhagen Sənədinin 16-cı maddəsi də daxil olmaqla ATƏT öhdəlikləri, Budapeşt sənədi (1994) və 1999-cu il Avropada Təhlükəsizlik üzrə İstanbul Xartiyası.
[63] CPM-in 15.2-ci maddəsi.
[64] CPM-in 125.2.2-ci maddəsi

nəticəyə gələrkən təhqiqatın səmərəsizliyinə səbəb olan ən əsas faktorlardan biri kimi, yerli orqanların məhkəmə sübutunu vaxtında təqdim etməmələrinə istinad edib.[65]

***Praktikada pis rəftara dair iddiaların tədqiqi.*** Layihə qrupu müşahidə edilmiş bir çox işlərdə hakimlərin səlahiyyətli orqanların həqiqətən də pis rəftara dair iddiaların təhqiqatını və (və ya) cinayət-axtarışını aparıb-aparmadıqlarını müəyyən etmədiklərini qeyd edib. Bəzi işlərdə hakimlərin istintaqın keçirilməsinə dair göstəriş vermələrinə baxmayaraq, onlar belə bir istintaqı izləmək və səmərəliyini təmin etmək üçün zəruri tədbirləri görməyiblər. Digər məhkəmə işlərində məhkəməyə qədər hakimlər prokurorluğun təqsirləndirilən şəxslərin dindirmə zamanı vəkillə məsləhətləşmək hüququnu təmin etdib-etmədiyini təsdiq etməyib və ya tibbi ekspertiza, mümkün yaraların qeydiyyatı və hesabatı kimi, pis rəftarın qarşısını almaq üçün hüquq mühafizə orqanlarının vəzifəli şəxslərinin təqsirləndirilən şəxsləri tutarkən və ya həbs edərkən hüquqlarına əməl edib-etmədiklərini araşdırmayıblar.

***Metal qəfəs və qandallardan istifadə edilməsi.*** Təhlükəsizlik tədbirləri işin halları ilə əsaslandırılmalı və təhlükəsizlik zəruriyyətinə mütənasib olmalıdır. Əks halda, həddindən artıq olduğu təqdirdə alçaldıcı rəftara səbəb ola bilər. Layihə qrupunun bu sahədə irəliləyişləri qeyd etməsinə baxmayaraq, hazırki, təqsirləndirilən şəxsin hüquqlarının həmin sərt tədbirin görülməsinə kifayət qədər əsaslar olmadan məhdudlaşdırılması təcrübəsini tamamilə sonlandırmaq üçün əlavə səylərin göstərilməsi zəruridir.

***AİHM-in müvafiq presedent hüququ.*** Təhlükəsizliyə mühüm risklərin olmadığı təqdirdə şəxsi qandallamaq və ya digər təhlükəsizlik tədbirlərini tətbiq etmək AİHK-ın 3-cü maddəsinin pozulmasına səbəb ola bilər.[66] Avropa Məhkəməsi müdafiə olunan şəxsin ictimai bir fiqur kimi statusu, öncədən məhkumluğunun olmaması və cinayət prosesi zamanı intizamlı davranışı təhlükəsizlik maraqlarının və məhkəmə binasına aparılarkən və ya məhkəmə iclas zalından qaçmaq,

[65] Bax: *Məmmədov Azərbaycana qarşı (Mammadov v. Azerbaijan)*, AİHM-in 11 yanvar 2007-ci il tarixli qərarı, 73-cü bölü, Ərizə № 34445/04. Bununla bağlı AİHM qeyd edirdi […] "hakim, vəkil, ailə üzvləri və ya köməklik göstərəcək, yaxud sübutları toplayacaq dostları ilə əlaqə saxlamaq imkanı olmadan ətraf mühitdən təcrid olunduğuna görə, zərərçəkmiş şəxsin polis nəzarətində işgəncəyə məruz qaldığına dair iddiaları əsaslandırmaq olduqca çətindir. […] Səlahiyyətli orqanlar eyni zamanda məhkəmə sübutları da daxil olmaqla, insidentlə bağlı sübutları əldə etmək üçün mümkün olan bütün ağlabatan addımları atmalıdırlar. Təhqiqatın yaraların səbəblərini və ya cavabdeh şəxsləri müəyyən etmək imkanlarını azaldan hər hansı bir çatışmazlıq bu standartla uyğunsuzluq təhlükəsinə səbəb olacaqdır. Məhkəmə bununla da məhkəmə sübutlarının vaxtında toplanmamasının indiki işdə təhqiqatın səmərəsizliyinə gətirib çıxaran ən əhəmiyyətli faktorlarıdan biri olduğunu hesab edr. […] Bundan əlavə, indiki işdə növbəti cinayət təhqiqatı qane edici olmayıb. Təhqiqat orqanları məhkəmə hesabatını tədqiq etməklə və ərizəçi ilə MCQMİ-də əlaqə saxlayan dörd polis zabitini dindirməklə kifayətlənib. Başqa hər hansı şahidə müraciət olunmayıb. Təhqiqatçı polis zabitlərinin ifadələrini əsas kimi götürüb və rizəçinin ifadələrinin və inkaredilməz bədən xəsarətlərinin olmasına baxmayaraq, cinayət işinin başlanmasını rədd edib."[…]

[66] Bax: *Muzel Fransaya qarşı* (*Mouisel v. France)*, AİHM-in 14 noyabr 2002-ci il tarixli qərarı, 47-ci bölüm; *Henaf Fransaya qarşı (Henaf v. France)*, AİHM-in 27 mart 2007-ci il tarixli qərarı, 48-ci bölüm, *İstratii və başqaları Moldovaya qarşı (Istratii and Others v. Moldova)*, AİHM-in 27 mart 2007-ci il tarixli qərarı, 57-ci bölüm, *Qorodniçev Rusiyaya qarşı( Gorodnichev v. Russia)*, AİHM-in 25 may 2007-ci il tarixli qərarı, 105-109-cü bölümlər.

yaxud zorakılığa yol vermək təhlükəsinin qiymətləndirilməsi baxımından əlaqədar faktorlar olduğunu qeyd edir.[67] Bu presedent hüququ ilə bərabər, məhkəmə təqsirsizlik prezumpsiyasına əməl olunması məqsədi ilə yalnız müstəsna olaraq lazımi qaydada əsaslandırılmış hallarda təqsirləndirilən şəxsləri metal qəfəslərdə yerləşdirə və (və ya) qandallaya bilər. Xüsusən də, AİHM təqsirləndirilən şəxsin kifayət qədər əsaslandırma olmadan metal qəfəsdə saxlandığı bir məhkəmə işində AİHK-ın 3-cü maddəsinin pozulduğunu təsbit edib. Məhkəmə təqsirləndirilən şəxsin qəfəsdə saxlanmasını onun alçaldılmasına səbəb olduğunu təsbit edib.[68]

***Monitorinqi aparılmış məhkəmə işlərinin təcrübəsi.*** Layihə qrupu müşahidə edilmiş işlərin əksəriyyətində təqsirləndirilən şəxslərin, törətməkdə təqsirləndirildikləri cinayət əməllərinin ağırlığından və (və ya) eyni zamanda məhkumluqlarının olub-olmamasından asılı olmayaraq, sistematik olaraq məhkəmə iclas zallarında metal qəfəslərdə saxlandığını qeyd edib.

***Əsaslandırılmış qərar almaq hüququ.*** Ədalətli məhkəmə araşdırması hüququnun əsas elementlərindən biri kimi bu hüquq, təqsirləndirilən şəxsin məhkəmələrin özbaşınalığına qarşı müdafiəsinə təminat verir. AİHM-in presedent hüququna müvafiq olaraq, “məhkəmələrin məhkəmə prosesləri zamanı verilən hər sualı cavablandırmaq məcburiyyəti olmamasına baxmayaraq, əgər arqument işin nəticələri baxımından əhəmiyyət daşıyırsa, məhkəmə qərarında xüsusilə ona da yer verməlidir.”[69] Birinci instansiya məhkəməsinin qərarında tərəflərə apellyasiya məhkəməsində də mübahisələndirmək fürsətinin tanınması üçün, məhkəmə proseslərində təqdim edilmiş təqsiri təsdiq edici və bəraətverici sübutlarla əlaqədar kifayət qədər əsaslandırma olmalıdır. Məhkəmə baxışının açıqlığına əlavə olaraq, yalnız əsaslandırılmış qərarların çıxarılması yolu ilə məhkəmə idarəetməsinə ictimai nəzarəti təmin etmək mümkündür.

CPM-ə əsasən, hakimlər qərarlarını əsaslandırmalıdırlar.[70] Məhkəmənin təqsirləndirilən şəxsin təqsirli və ya təqsirsiz hesab olunmasına dair qərarının yalnız proses zamanı araşdırılmış sübutlara istinad etdiyi halda əsaslandırılmış hesab olunur, hansı ki, prokurorluğun təqsirləndirilən şəxsin əlehinə irəli sürdüyü ittihamları yetərincə sübut edib-etmədiyini müəyyən etmək baxımından kifayətdir.[71] Bununla belə, qərar sübutlara dair müvafiq standart tələblərə uyğun olaraq və digər

---

[67] Bax: *Sarban Moldovaya qarşı( Sarban v. Moldova)*, AİHM-in 4 oktyabr 2005-ci il tarixli qərarı, 89-cü bölüm.

[68] Bax: *Piruzyan Ermənistana qarşı* (*Piruzyan v. Armenia)*, AİHM-in 26 iyun 2012-ci il tarixli qərarı və *Aşot Harutyunyan Ermənistana qarşı (Ashot Harutyunyan v. Armenia)*, AİHM-in 15 iyun 2010-cu il tarixli qərarı.

[69] Bax: Avropa Şurasının *AİHK-ın 6-cı maddəsinin tətbiqinə dair məlumat kitabçası* 2006-cı il, s. 49.

[70] CPM-in 349-cu maddəsinin 3-cü bəndi.

[71] CPM-in 349-cu maddəsinin 5-ci bəndi.

sübutların nəzərə alınmamasının səbəblərini açıqlayaraq, açıq şəkildə məhkəmənin təqsirləndirilən şəxsin təqsirli və ya təqsirsizliyini müəyyən etməsinə səbəb olan sübuta istinad etməlidir.[72]

***AİHM-in müvafiq presedent hüququ.*** *Hüseyn və digərləri Azərbaycana qarşı (Huseyn and others v. Azerbaijan)*[73] işində AİHM məhkəmənin prokurorluq tərəfindən təqdim edilən və təqsirləndirilən şəxs tərəfindən bir sıra əsaslandırılmış vəsatətlər vasitəsilə məhkəmənin diqqətinə çatdırılmış sübutlara dair ziddiyyətlərə diqqət yetirməməsinə əsaslanaraq, Azərbaycanın AİHK-ın 6-cı maddəsini pozduğunu təsbit edib. Xüsusən də, AİHM Azərbaycan məhkəmələri hansı səbəbdən müdafiə tərəfinin prokurorluğun şahidlərinə etdiyi etirazları tədqiq etmədiyini və hansı səbəbdən ittiham tərəfinin şahidlərinin ifadələrindəki ziddiyyətlərin işin həlli baxımından əlaqəsiz hesab edilməsinə dair heç bir səbəb göstərməyiblər.[74]

Layihə qrupu seçilmiş məhkəmə hökmlərində[75] hakimlərin məhkəmə baxışları zamanı müdafiə tərəfinin qaldırdığı məsələləri müdafiə tərəfinin qaldırdığı vəsatət və etirazları cavabsız qoyaraq nəzərə almadıqlarını qeyd edib. Bu kimi işlərdə, hakimlərin müdafiə tərəfinin qaldırdığı vəsatətlər və məsələlərə dair mövqeyi aydın olmayıb və məhkəmə hökmlərində məhkəmələrin gəldiyi nəticələr baxımından hər hansı əsaslandırma göstərilməyib.

Məsələn, bir iş üzrə yekun qərarda ittiham tərəfinin şahidlərinin ifadələrindəki uyğunsuzluq və ziddiyyətlərlə bağlı müdafiə tərəfinin təqdim etdiyi vəsatətlərə istinad edilməyib. Əlavə olaraq, müdafiə tərəfi tibbi ekspertin rəyinə ziddiyyətli olmasına və məhkəmənin onu sübutların arasından kənarlaşdırmasına dair əsaslandırılmış vəsatət qaldırıb. Müdafiə tərəfindən qaldırılmış vəsatətlərə cavab olaraq, hakim bu məsələyə dair yekun qərarında münasibət bildirəcəyini qeyd edib. Bununla belə, hökm yalnız ittiham tərəfinin şahid ifadələrinə, eyni zamanda sözügedən tibbi ekspertin rəyinə istinad edib və təqsirləndirilən şəxsi təqsirli hesab edilməsi ilə nəticələnib.

---

[72] CPM-in 353.2.2-ci maddəsi.

[73] Bax: *Hüseyn və başqaları Azərbaycana qarşı (Huseyn and others v. Azerbaijan)*, AİHM-in 26 iyul 2011-ci il tarixli qərarı. Ərizələr №35485/05, №45553/05, №35680/05 və № 36085/05.

[74] Yuxarıdakı 74-cü qeyddə olduğu kimi. Qərardan çıxarış: […] "Məhkəmə şahidin müxtəlif vaxtlarda verdiyi ifadələr arasındakı ziddiyyətlər, eyni zamanda prokurorluq tərəfindən irəli sürlüən müxtəlif növ sübutlar arasındakı ziddiyyətlərin şahidin dürüstlüyü və onun ifadəsinin sübut edilənliyinin mübahisələndirilməsi üçün ciddi əsaslar verdiyini təsbit edir. Belə ki, bu cür mübahisələndirmə sübutlara əsasən işin faktiki hallarının dəyərləndirilməsinə və nəhayət, prosesin nəticələrinə təsir edə biləcək etirazın ortaya çıxmasına səbəb olur. Beləliklə, Məhkəmə işə baxan məhkəmənin bununla bağlı müdafiə tərəfinin etirazlarına cavab vermədiyini və iş materiallarındakı sənədlərdən göründüyü kimi, heç bir halda ittiham tərəfinin şahid ifadələri arasındakı ziddiyyətlərə dair iddialarını nəzərə almadığını təsbit edir."[…] "Bu cür hallarda, müdafiə tərəfinin yuxarıda qeyd olunan şahidlərin əlehinə irəli sürdüyü etirazların təbiəti və mahiyyətini nəzərə alaraq, Məhkəmə yalnız yerli məhkəmənin həmin etirazlara cavab verməli olduğuna və bu cür cavabların yoxluğunda ərizəçilərin onların əlehinə ifadə verən şahidləri dindirmək üçün zəruri imkanlara malik olmaq və barələrində əsaslandırılmış qərar verilmək hüquqlarının pozulduğuna dair qərara gələ bilər." […].

[75] Layihə qrupu müşahidə edilmiş işlərin yekun məhkəmə qərarlarını əldə edə bilməyib. Bununla belə, hesabatın bu hissəsindəki təhlil Layihə qrupunun işlərin mürəkkəbliyi, təqsirləndirilən şəxslərin sayı və s. faktorlara əsasən seçdiyi yeddi qərara əsaslanıb.

# 5. TÖVSİYƏLƏR

## *Məhkəmə orqanlarına*

### *1. Pis rəftara dair iddiaların araşdırılması*

Ofis məhkəmələrə pis rəftara dair iddiaların səmərəli tədqiq edilməsini və ifadələrin təzyiq altında verildiyinin mümkünlüyünün hər hansı bir əlaməti olduğu halda, həmin ifadələrin sübutlar siyahısından çıxarılmasını məsləhət görür.

Ofis hakimləri kifayət qədər əsas olmadan, məsələn, cinayət əməlinin ağırlığı və ya təqsirləndirilən şəxsin öncədən məhkumluğunun olub-olmamasına əsaslanmayaraq sərt təhlükəsizlik tədbiri sayılan təqsirləndirilən şəxsləri metal qəfəsdə saxlamaq təcrübəsinə son qoymağa çağırır.

### *2. Azadlıq və şəxsi toxunulmazlıq hüququ*

Ofis məhkəmələrə məhkəmə prosesləri başlayana qədər sistematik olaraq həbs qətimkan tədbirini seçmək təcrübəsinə son qoymağı və CPM-in müddəalarına uyğun olaraq, məhkəmənin təqsirləndirilən şəxsin prosesdə iştirak edəcəyinə və zərərçəkmiş şəxsə, şahid və ya eyni zamanda digər şəxslərə hər hansı bir təhlükə yaratmayacağına əmin olduğu hallarda təqsirləndirilən şəxsin şərti azadlığa buraxmalarını məsləhət görür.

Ofis məhkəmələrin həmin qətimkan tədbirini seçməyə ilkin amilləri və eyni zamanda istintaqda və məhkəmə işinin yeni açılmış halları ətraflı nəzərə almadan həbs qətimkan tədbirinin avtomatik uzadılmasına dair hazırki təcrübələrinə son qoyulmasını tövsiyə edir.

### *3. Ədalətli məhkəmə araşdırması hüququ*

Ofis hakimlərə təqsirləndirilən şəxsi məhkəmə prosesləri boyunca vəkillə ünsiyyət qurma hüququ ilə və təqsirləndirilən şəxsin müdafiəyə hazırlaşa bilməsi üçün kifayət qədər vaxtla təmin etmələrini məsləhət görür. Əgər təqsirləndirilən şəxs hüquqi müdafiənin xidmət haqqını ödəyə bilmirsə və dövlət tərəfindən müdafiəçinin təyin olunmasına etiraz etmirsə, bu halda hakimlərə məsləhət görülür ki, onlar tərəflərin bərabərliyinin təmin olunması məqsədi ilə məhkəmə prosesi boyunca dövlət tərəfindən təyin olunan vəkillərin

təqsirləndirilən şəxsə peşəkar və səmərəli müdafiə xidmətlərinin göstərilməsini təmin etsinlər[76]

Dövlət tərəfindən təyin olunan hüquqi müdafiənin səmərəliyini təmin etmək üçün, Ofis hakimlərə vəkillərin açıq-aşkar öz vəzifələrini icra edə bilmədikləri halda onların digər vəkillərlə əvəz olunmaları üçün Vəkillər Kollegiyasına müraciət etmələrini tövsiyə edir.

Ofis məhkəmələrə müdafiə tərəfinə qərəzli yanaşılması təəssüratını aradan qaldırmaq məqsədilə, prokurorluq və müdafiə tərəfinin təqdim etdiyi sübutları CPM və hər bir məhkəmə işinin hallarına uyğun olaraq bərabər şərtlərlə nəzərə almalarını məsləhət görür.

Ofis hakimlərə müdafiə tərəfinə təqsiri təsdiqləyici sübutları qanunun icazə verdiyi ən geniş formada mübahisələndirmək imkanını tanımaq məqsədilə ittiham tərəfinin şahidlərinin reallıqda məhkəmə proseslərində iştirakını mümkün qədər təmin etməyi tövsiyə edir.

Ofis tövsiyə edir ki, hakimlər hökmlərdə təqsirləndirilən şəxsin əleyhinə və lehinə olan sübutlar daxil olmaqla, təqsirləndirilən şəxsin təqsirli olub-olmadığına dair sübutlara və arqumentlərə münasibət bildirsinlər. Buna məhkəmə prosesi zamanı qəbul olunan və araşdırılan və işin ədalətli həlli üçün həlledici təsirə malik olan sübutların rədd olunması səbəblərinin izah olunması da daxildir.

## *İbtidai Araşdırma Orqanlarına*[77]

### *1. Pis rəftarın hər hansı bir növünün qarşısının alınması*[78]

Ofis ibtidai araşdırma orqanlarına, xüsusilə də Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinə şübhəli şəxslərin tutulması zamanı bunları məsləhət görür:

- Tutulmaları barədə qərar və beləliklə də tutulmanın səbəblərini tutulan şəxslərin diqqətinə çatdırmaq;

---

[76] Bax: hüquqi yardımın keyfiyyətinə dair Vəkillər Kollegiyasına tövsiyələr bölümü.

[77] CPM-in 214 və 215-ci maddələri və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 25 avqust 200-ci il tarixli fərmanına əsasən, istintaq orqanlarına Prokurorluq, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik, Ədliyyə, Vergilər və Fövqəladə Hallar Nazirliyi, eyni zamanda Dövlət Sərhəd Xidməti və dövlət Gömrük Komitəsi daxildir.

[78] Ofis 11 iyul 2012-ci il tarixdə qüvvəyə minmiş təcridxanada saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi barədə yeni qanunun qəbul edilməsindən məmnunluq duyur. Əgər səmərli şəkildə tətbiq edilərsə, yeni Qanun saxlanma şərtlərinin yaxşılaşdırılması və şübhəli və təqsirləndirilən şəxslərin hüquqlarına artan şəkildə əməl edilməsinə köməklik göstərə bilər (saxlanılan şəxslər barəsində yeni Qanun).

- Şübhəli şəxslər xəstə olduqlarını iddia etdikləri zaman və/və ya xəsarət nümayiş etdikdə, yaxud saxlama müəssisəsinin rəhbərliyi özü hər hansı xəsarət müşahidə etdiyi halda onları dərhal tibbi müayinədən keçirmək. Saxlama müəssisəsinin rəhbərliyi yaraların mövcud olduğu halda tibbi müayinənin ətraflı qeydiyyatının aparılmasını təmin etməli və şübhəli şəxsin vəkilinə və istintaqa rəhbərlik edən səlahiyyətli dövlət orqanlarına şübhəli şəxsin hüquq-mühafizə orqanlarının vəzifəli şəxsləri tərəfindən tutularkən, yaxud müstəntiqlər tərəfindən dindirilərkən pis rəftara məruz qaldığı ehtimalı barədə məlumat verməlidir.

Ofis tövsiyə edir ki, istintaqı aparan səlahiyyətli orqanlar pis rəftar iddialarını vaxtında və lazımi qaydada araşdırsınlar və təhqiqat nəticəsində həmin iddialar təsdiq edildiyi halda hüquq-mühafizə orqanlarının müvafiq vəzifəli şəxslərin məsuliyyətə, o cümlədən cinayət məsuliyyətinə cəlb olunması təmin olunsun. Ofis daha sonra saxlanılan şəxslərin pis rəftarın hər hansı bir növünə məruz qalmalarını ehtimal etməyə əsas verən səbəblərin mövcud olduğu hallarda hüquq-mühafizə orqanlarının vəzifəli şəxslərinə və (və ya) məhkəmələrə öz təşəbbüsü ilə həmin məsələni araşdırmağı məsləhət görür.

### *2. Azadlıq və şəxsi toxunulmazlıq hüququ*

Ofis istintaq orqanlarına CPM-in 158-ci maddəsinin 3-cü bəndinə əsasən təqsirləndirilən şəxsə tətbiq edilən həbs qətimkan tədbirinin müddətinin məhkəmə prosesinin başlanmasına qədər, məhkəmə qərarı olmadan uzadılması təcrübəsinə son qoymağı tövsiyə edir.

### *3. Ədalətli məhkəmə araşdırması hüququ*

Ofis istintaq orqanlarına, xüsusilə də prokurorluq orqanlarına saxlanılan şəxslərin tutulduqları vaxt və xüsusən də şübhəli və təqsirləndirilən şəxslərin dindirildikləri vaxt, rəsmi qaydada bu hüquqdan imtina etdikləri hallar istisna olmaqla, öz seçimlərinə əsasən və ya dövlət tərəfindən təyin olunmuş vəkillə təmin olunmalarına şərait yaradılmasını məsləhət görür.

## *Vəkillər Kollegiyasına*

Ofis Vəkillər Kollegiyasına vəkillər üçün keyfiyyət standartları və etik və peşə davranış qaydalarını hazırlamağı və tətbiq etməyi məsləhət görür.

Yuxarıda qeyd olunanlarla bağlı olaraq, Ofis Vəkillər Kollegiyasına vəkillərin, xüsusilə də dövlət tərəfindən təyin olunmuş vəkillərin müştərilərinə qarşı öz vəzifələrini açıq şəkildə

icra etmədikdə cavabdehliyi təmin etmək məqsədilə özünün inzibati prosedurlarını səmərələşdirməyi tövsiyə edir.

Ofis Vəkillər Kollegiyasına vəkillərin sayının artırılması və onların təklif etdikləri hüquqi məsləhət və nümayəndəliyin Ədliyyə Akademiyası və digər maraqlı tərəflərlə əməkdaşlıq çərçivəsində hazırlanan və tətbiq edilən məcburi davamedici hüquqi təhsil proqramları da daxil olmaqla keyfiyyətinin artırılması yönündə hazırkı səylərini davam etdirməyi tövsiyə edir.

Ofis Vəkillər Kollegiyasına dövlət tərəfindən təmin edilən hüquqi yardımın keyfiyyət və səmərəliyini artıran işlək hüquqi yardım sisteminin hazırlanması və tətbiq edilməsi üçün vəkillər, prokurorluq orqanları, hakimlər, millət vəkilləri, Ədliyyə Nazirliyi və vətəndaş cəmiyyətinin nümayəndələri və beynəlxalq ekspertlər də daxil olmaqla müvafiq tərəflərlə konstruktiv və ardıcıl dialoq aparmağı məsləhət görür.

## *Parlamentə*

Vəkillər Kollegiyasına edilmiş tövsiyələrə müvafiq olaraq, Ofis Parlamentə işlək hüquqi yardım sisteminin hazırlanması və tətbiq edilməsinə imkan yaratmaq və təşviq etmək üçün beynəlxalq praktikaya əsasən hüquqi yardıma dair yeni qanunvericiliyin qəbul etməsini məsləhət görür.

Ofis Parlamentə şübhəli şəxslərin tutulma və həbs olunma zamanı dərhal vəkillə təmin olunma hüquqlarının tətbiqini sürətləndirmək məqsədilə CPM-in müvafiq müddəasına düzəlişlərin edilməsini tövsiyə edir.

## *Dövlət orqanlarına*

Vəkillər Kollegiyasına edilmiş tövsiyələrə müvafiq olaraq, Ofis dövlət orqanlarına və xüsusilə də Maliyyə Nazirliyinə vəkil xidmətlərinin ümumi keyfiyyətinin artırılması məqsədilə hüquqi yardım sistemi, eyni zamanda vəkillərin bacarıqlarının artırılması fəaliyyətlərinə dair islahatları zəruri maliyyə resursları ilə dəstəkləmələrini məsləhət görür.

Ofis dövlət orqanlarının yeni tikilən məhkəmə binalarında metal qəfəslərin şüşə bəndlərlə əvəz olunmasına dair hazırkı səylərini qiymətləndirir və xüsusilə də Ədliyyə Nazirliyinə ağır cinayətlərin araşdırıldığı məhkəmə iclas zalları istisna olmaqla, bütün digər məhkəmə zallarında metal qəfəsləri ləğv etməyi tövsiyə edir.

## ƏLAVƏ

## MƏHKƏMƏLƏRİN MONİTORİNQİNƏ DAİR ATƏT ÖHDƏLİKLƏRİ

**1989-CU IL VYANA GÖRÜŞÜ** (Avropada təhlükəsizliyə dair məsələlər: Prinsiplər)

(13) (…) [İştirakçı Dövlətlər]

(13.9) – insan hüquqlarının və əsas azadlıqlarının pozulduğunu iddia edən şəxslər üçün səmərəli vasitələr və onlar barəsində dolğun məlumatların mövcudluğunu təmin edəcək, eyni zamanda səmərəli şəkildə aşağıdakı vasitələri tətbiq edəcəklər:

• şəxsin icra, qanunvericilik, məhkəmə və inzibati orqanlara müraciət etmək hüququ;

• hüquqi arqumentlər təqdim etmək və öz istəyinə əsasən vəkillə təmsil olunmaq da daxil olmaqla, müstəqil və qərəzsiz məhkəmədə ağlabatan müddət ərzində ədalətli və açıq məhkəmə araşdırması hüququ;

• qərarın əsaslandırıldığı hüquqi səbəblər də daxil olmaqla, hər hansı bir müraciət əsasında çıxarılmış qərarlar barəsində dərhal və rəsmi qaydada məlumatlandırılmaq hüququ. Bu məlumat bir qayda olaraq yazılı və hər bir halda şəxsin növbəti instansiyalarda səmərəli istifadəsinə imkan yaradan qaydada təqdim edilməlidir.

(23.2) – saxlanan və həbs edilən bütün şəxslərin humanizm və insan şəxsiyyətinə xas ləyaqətə hörmətlə rəftar ediləcəyini təmin edirlər;

(23.3) – BMT-nin Məhbuslarla rəftara dair minimum standart Qaydaları və eyni zamanda BMT-nin Hüquq-mühafizə orqanlarının davranış məcəlləsinə əməl edirlər;

(23.4) – işgəncə və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftar, yaxud cəzanı qadağan edir və bu kimi halların qarşısının alınması və cəzalandırılması üçün səmərəli qanunvericilik, inzibati, məhkəmə qaydasında və digər tədbirlər görürlər;

(23.5) - əgər hələ qoşulmayıblarsa, İşgəncələr və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftar, yaxud cəzaya qarşı Konvensiyaya qoşulmağı nəzərə alrlar;

(23.6) – şəxsləri insan hüquqlarını və əsas azadlıqlarını pozan psixiatrik və tibbi maddələrdən müdafiə edir və bu cür halların qarşısının alınması və cəzalandırılması üçün səmərəli tədbirlər görürlər.

**1990-CI IL KOPENHAGEN SƏNƏDI**

(2) [İştirakçı dövlətlər] hüququn aliliyinin əsasını təşkil edən həmin prinsiplərin dəstəklənməsi və inkişaf etdirilməsində qərarlıdırlar. Onlar demokratik nizamın əldə olunmasında müntəzəmlik və ardıcıllığı təmin edən qanunun aliliyinin sadəcə rəsmi bir qanunilik mənasını daşımadığını, lakin insan şəxsiyyətinin ali dəyərinin tanınması və bütövlüklə qəbul edilməsinə əsaslandığını, onun ən geniş həcmdə ifadə olunması üçün çərçivələri müəyyən edən institutlar tərəfindən təminat altına alındığını hesab edirlər.

(5) Onlar təntənəli surətdə bəyan edirlər ki, ədalətin bütün insanlara xas ləyaqətin bütöv ifadəsi baxımından vacib ünsürlərinə, o cümlədən onların bərabər və ayrılmaz hüquqlarına aşağıdakılar daxildir:
(…)

(5.7) – beynəlxalq hüquqa əsasən daşıdıqları öhdəliklərə müvafiq olaraq insan hüquqları və əsas azadlıqlarına qanunvericilklə təminat verilir;
(…)

(5.9) – bütün şəxslər qanun qarşısında bərabərdirlər və heç bir ayrı-seçkilik qoyulmadan qanuntərəfindən bərabər qaydada müdafiə olunmaq hüququna malikdirlər. Bununla bağlı qanun hər cür ayrı-seçkiliyi qadağan edir və bütün şəxslərin hər hansı əlamətə görə ayrı-seçkiliyə qarşı bərabər və səmərəli müdafiəsinə təminat verir;

(5.10) – əsas hüquqlara hörmət edilməsinə və hüquq sisteminə xələl gətirilməməsinin təmin olunmasına zəmanət verilməsi üçün, hər kəs inzibati qərarlara qarşı səmərəli hüquqi müdafiə vasitələrinə malik olmalıdır;

(5.11) – şəxsə qarşı inzibati qərarlar tam əsaslı olmalı və bir qayda olaraq mümkün olan adi hüquqi müdafiə vasitələri orada göstərilməlidir;

(5.12) - hakimlərin müstəqilliyi və dövlət məhkəmə xidmətinin qərəzsiz fəaliyyəti təmin edilməlidir;

(5.13) - vəkillərin müstəqilliyi, o cümlədən onların işə qəbul edilməsinə və fəaliyyətinə aid şərtlərə münasibətdə, tanınır və qorunur;

(5.14) - cinayət proseduruna aid normalara cinayət təqibi ilə bağlı dəqiq müəyyən edilmiş səlahiyyətlər və cinayət təqibinə qədərki və onu müşayiət edən tədbirlər daxil olmalıdır;

(5.15) - cinayət törətməkdə ittiham edilərək tutulmuş və ya həbsə alınmış hər bir şəxs tutulmasının və ya həbsinin qanuniliyinin müəyyən edilməsi üçün dərhal hakimin və ya qanunla bu funksiyanı yerinə yetirmək səlahiyyəti verilmiş digər şəxsin yanına gətirilmək hüququna malikdir;

(5.16) - Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir;

(5.17) - cinayət törətməkdə ittiham olunan hər kəs şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə belə müdafiədən pulsuz istifadə etmək hüququna malikdir;

(5.18) - cinayət əməlinin elementləri qanunla aydın və dəqiqliklə müəyyən edilmədiyi halda heç kəs həmin cinayət əməlinə görə ittiham oluna, məhkəməyə cəlb edilə və ya məhkum oluna bilməz;

(5.19) - hər kəs qanunla təqsiri sübut olunmayana qədər təqsirsiz sayılır;

(12) Vyana yekun Sənədinin ATƏM-in insan ölçüsü başlığı altında qəbul etdiyi öhdəliklərin icrasında geniş şəffaflığı təmin etmək arzusunda olan iştirakçı dövlətlər iştirakçı dövlətlər tərəfindən göndərilmiş müşahidəçilər və qeyri-hökumət təşkilatlarının nümayəndələri, eyni zamanda digər maraqlı şəxslərin daxili qanunvericilik və beynəlxalq hüquqa əsasən məhkəmə

proseslərində iştirakını etibarın möhkəmləndirilməsi tədbiri kimi qəbul edir; başa düşülür ki, yalnız qanunvericilikdə nəzərdə tutulan hallarda və beynəlxalq hüquqa və beynəlxalq öhdəliklərə uyğun olaraq qapalı keçirilə bilər.
(…)

(16.2) - əgər hələ qoşulmayıblarsa, təcili surətdə İşgəncələr və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftar və ya cəzalara qarşı Konvensiyaya qoşulmaq və Konvensiyanın 21 və 22-ci maddələrinə əsasən İşgəncələr əlehinə Komitənin səlahiyyətlərinin tanınması və Komitənin 20-cə maddəyə əsasən səlahiyyətlərinə dair qeyd-şərtlərin geri götürülməsi məsələlərini nəzərə almaq niyyətindədirlər;

(16.3) – vurğulayırlar ki, heç bir müstəsna hal, nə müharibə şəraiti və ya müharibə təhlükəsi, nə də daxili siyasi qeyri-sabitlik, yaxud hər hansı digər ictimai fövqəladə hadisə işgəncəyə əsas kimi göstərilə bilməz;

(16.4) – işgəncələrin qadağan edilməsinə dair təhsil və məlumatların hüquq-mühafizə orqanlarının işçiləri, mülki, hərbi və ya tibbi personal, dövlət qulluqçuları və ya tutulma, həbs və ya azadlıqdan məhrum edilmənin hər hansı bir formasının tətbiq edildiyi hər hansı bir şəxsin saxlanılması, dindirilməsi və ya onunla rəftar edilməsində iştirak edə biləcək digər şəxslərin hazırlığına tamamilə daxil edilməsini təmin edəcəklər;

(16.5) – hər hansı işgəncə halının qarşısının alınması məsədi ilə yurisdiksiyaları daxilindəki hər hansı bir ərazidə tutulma, saxlama və ya azadlıqdan məhrum edilmənin hər hansı formasının tətbiq edildiyi şəxslərin dindirilməsi qaydaları, təlimatları, metod və təcrübələrini, eyni zamanda saxlama şərtləri və onlarla davranışı sistematik nəzarətdə saxlayacaqlar;

(16.6) – ATƏM-in insan ölçüsü, rəsmi kanallar və ya hər hansı digər etibarlı informasiya mənbələrindən öyrənilmiş işgəncə və digər qeyri insani və ya alçaldıcı rəftar, yaxud cəza hallarına dair öhədliklərinin səmərəli tətbiqi üçün razılaşdırılmış tədbirlər və prosedurlara müvafiq qaydada prioritet olaraq nəzərə alacaq və müvafiq tədbirlər görəcək;

(16.7) – işgəncə və digər qeyri-insani və ya alçaldıcı hərəkət, yaxud cəzaya məruz qalmış hər hansı bir şəxsin həyat və təhlükəsizliyinin qorunması və təminat altına alınmasının müvafiq bərpaedici tədbirin tətbiq edilməsində təcililik və təxirəsalınmazlığın müəyyən edilməsində yeganə meyar olması; və bununla da hər hansı digər beynəlxalq qurum və ya mexanizm çərçivəsində hər hansı işgəncə və digər qeyri-insani və ya alçaldıcı hərəkət, yaxud cəza hallarının nəzərə alınmasının razılaşdırılmış tədbirlər və ATƏM-in insan ölçüsünə dair öhdəliklərin səmərəli tətbiq prosedurlarına müvafiq olaraq nəzərə alınmasından və müvafiq tədbirlərin görülməsindən imtina edilməsinə əsas olaraq göstərilməməsi anlayışı ilə hərəkət edəcəklər;

**1991-CI IL MOSKVA GÖRÜŞÜ**

(21) İştirakçı dövlətlər

(21.1) – hüquq mühafizə orqanları personalının ictimai asayişi təmin edərkən ictimai maraqlar naminə hərəkət etmələri, müəyyən bir zərurətə cavab vermələri, qanuini məsədlər güdmələri, eyni zamanda şəraitə uyğun olan, mühafizənin zərurətini aşmayan yollar və vasitələrdən istifadə etmələrini təmin etməlidirlər;

(21.2) – hüquq-mühafizə orqanlarının hərəkətlərinin, personalın bu kimi hərəkətlərə görə məsuliyyət daşıdığı məhkəmə nəzarəti altında olmasını və yuxarıdakı öhdəliklərin pozulması

nəticəsində zərəçəkmiş şəxslərin daxili qanunvericiliyə əsasən kompensasiya tələb edə bilməsini təmin edirlər;
(…)

(23.1) İştirakçı dövlətlər təmin edirlər ki,

(i) heç kəs qanunvericilikdə müəyyən olunmayan əsaslar və prosedurlara uyğun olaraq azadlıqdan məhrum edilə bilməz;

(ii) tutulan hər bir kəs tutulmanın səbəbləri barədə özünün başa düşdüyü dildə dərhal məlumatlandırılacaq və əlehinə irəli sürülən ittihamlar barədə məlumatlandırılacaqdır;

(iii) azadlığı məhdudlaşdırılmış hər hansı bir şəxs daxili qanunvericliyə əsasən öz hüquqları barədə məlumatlandırılacaqdır;

(iv) tutulan və ya saxlanılan hər kəsin dərhal hakim və ya qanunvericilik tərəfindən onun tutulması və ya həbsinin qanuniliyini müəyyən etmək üçün səlahiyyətli şəxsin hüzuruna çıxarılacaq və qanunsuz olduğu təqdirdə təxirə salınmadan azadlığa buraxılacaqdır;

(v) cinayət əməlini törətməkdə ittiham edilən hər kəs özünü müdafiə etmək və ya öz seçiminə əsasən vəkil vasitəsilə, əgər vəkilə ödəmək üçün yetərincə vəsaitə malik deyildirsə, ədalət maraqlarının tələblərinə uyğun olaraq pulsuz vəkillə təmin olunmaq hüququna malik olacaqdır;

(vi) tutulan və ya saxlanılan hər kəsin özünün tutulması, saxlanılması, azadlıqdan məhrum edilməsi və olduğu yer barədə özünün müəyyən etdiyi şəxslərə təxirə salınmadan məlumat vermək və ya səlahiyyətli orqandan onlara məlumat verməsini tələb etmək hüququ olacaqdır; bu hüququn tətbiq edilməsinə dair hər hansı məhdudiyyət qanunvericilik tərəfindən nəzərdə tutulmalı və beynəlxalq standartlara cavab verməlidir;

(vii) hüquq çühafizə orqanlarının etirafa məcbur etmək, yaxud digər qaydada təqsiri boynuna almaq və ya başqa şəxsin əlehinə ifadə verməsi məqsədilə saxlanmış və ya həbs olunmuş şəxsin əlverişsiz vəziyyətindən sui-istifadə hallarının qarşısını almaq məsədilə, əgər hələ görülməyibsə, səmərəli tədbirlər görüləcəkdir;

(viii) dindirmənin müddəti və onlar arasındakı interval daxili qanunvericiliyə müvafiq olaraq qeydə alınacaq və təsdiqlənəcəkdir;

(ix) saxlanılan şəxs və ya onun vəkili onun, xüsusilə də işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud alçaldıcı rəftarın tətbiq edilməsi ilə bağlı saxlanılan şəxslə rəftar edilməsinə dair təcridxananın idarəçiliyindən məsuliyyət daşıyan orqanlara və zərurət yarandığı hallarda baxış keçirmə və islah etmə səlahiyyətlərinə malik orqanlara tələb və ya şikayət vermək hüququna malik olacaqdır;

(x) bu kimi tələb və ya şikayətə dərhal baxılacaq və təxirə salınmadan cavablandırılacaqdır; əgər tələb və ya şikayət geri qaytarılırsa və ya həddindən artıq gecikmə yaranarsa, şikayətin məhkəmə və ya digər orqana göndərilməsi hüququ yaranacaqdır; nə saxlanmış və ya azadlıqdan məhrum edilmiş şəxs, nə də hər hansı bir şikayətçi tələb və ya şikayət verməsinə görə təzyiqlərə məruz qalmayacaqdır;

(xi) qanunsuz tutulma və ya həbsə görə zərərçəkmiş hər hansı bir şəxs qanunla qorunan kompensasiya tələb etmək hüququna malik olacaqdır.

**1994-CI IL BUDAPEŞT GÖRÜŞÜ** (Yeni erada əsl əməkdaşlığa doğru: İnsan ölçüsü)

20-ci bölüm. İşgəncənin qarşısının alınması

20. İştirakçı dövlətlər insan hüquqlarının və insan ləyaqətinin ən qorxunc pozuntularından biri kimi işgəncənin bütün növlərini pisləyirlər. Onlar özlərini işgəncənin yox edilməsi ilə mübarizəyə həsr edirlər. Onlar bunun insan hüquqlarına dair beynəlxalq müqavilələrdə, xüsusilə də İşgəncələrə və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftar, yaxud cəzaya qarşı BMT Konvensiyası və İşgəncə və qeyri-insani, yaxud alçaldıcı rəftar və ya cəzanın qarşısının alınmasına dair avropa Konvensiyasında göstərilən beynəlxalq normalar baxımından əhəmiyyətini anlayırlar. Onlar eyni zamanda işgəncənin aradan qaldırılması məqsədilə daxili qanunvericiliyin əhəmiyyətini də anlayırlar. Onlar üzərilərinə iddia olunan işgəncə hallarının araşdırılmasına və onu törədən şəxsləri cəzalandırmaq öhdəliyini götürürlər. Onlar eyni zamanda hüquq-mühafizə və polis orqanlarının təhsil və təlim proqramlarında işgəncənin aradan qaldırılması anlayışına dair spesifik müddəalara yer vermək öhdəliyini götürürlər. Onlar bu problem barəsində məlumat mübadiləsinin ilkin şərt olduğunu nəzərə alırlar. İştirakçı dövlətlərin bu cür informasiyaya malik olmaq imkanları olmalıdır. ATƏM bu məqsədlə BMT İnsan Hüquqları Komissiyası tərəfindən təsis edilən İşgəncə və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftar, yaxud cəza üzrə Xüsusi məruzəçinin təcrübələrinə diqqəti yönəltməli və QHT-lər tərəfindən təqdim olunmuş məlumatdan istifadə etməlidir.

**2005-CI IL LYUBLYANA GÖRÜŞÜ** (Qərar № 12/05 İnsan hüquqlarının və cinayət-məhkəmə sistemlərinin dəstəklənməsi)

Nazirlər Şurası,

İnsan hüquqları və əsas azadlıqlarına tam hörmətin və cəmiyyətlərin inkişafının plüralist demokratiya və qanunun aliliyinə əsaslanmasını uzunmüddətli sülh, təhlükəsizlik, ədalət və sabitiyə nail olmağın ilkin şərtlərindən biri olduğunu qəbul edərək,

1975-ci il Helsinki Yekun Aktı, 1989-cu il Vyana yekun Sənədi, 1990-cı il Kopenhagen sənədi və 1991-ci il Moskva sənədində qeyd olunan, ATƏT-in 1994-cü il Budapeşt Sammitində əldə edilən hüququn aliliyinə dair öhdəliklər və digər müvafiq ATƏT öhdəliklərinin yenidən təsdiq edərək və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncə və digər qəddar, qeyri-insani və ya alçaldıcı hərəkət, yaxud cəzaya qarşı BMT Konvensiyası da daxil olmaqla, müvafiq beynəlxalq öhdəlikləri xatırlayaraq,

Hökumətin, administrasiyanın, eyni zamanda məhkəmənin fəaliyyətinin qanun tərəfindən təsis edilmiş sistemə və iştirakçı dövlətlərin ATƏT öhdəliklərinə və beynəlxalq öhdəliklərinə uyğun olaraq həyata keçiriləcəyini və bu sistemə hörmət edilməsini vacibliyini təkrarlayaraq,

Qanunun aliliyinin yalnız demokratik nizamın əldə olunmasında və tətbiq olunmasında müntəzəmlik və ardıcıllığı təmin edən rəsmi qanunilik olmadığını, lakin insan şəxsiyyətinina ali dəyərinin tannması və tam mənasında qəbul edilməsinə əsaslanan və onun tam mənasında ifadə edilməsi üçün çərçivəni müəyyən edən institutlar tərəfindən təminat altına alınan ədalət olduğunu nəzərə alaraq,

Qanunun aliliyinin beynəlxalq səviyyədə tanınan, ədalətli məhkəmə araşdırması hüququ, səmərəli vasitələrdən istifadə hüququ və məhkəmə tərəfindən tutulmama və ya həbs olunmama hüququ da daxil olmaqla insan hüquqlarına hörmətə əsaslanmalı olduğunu qəbul edərək

Qərəzsiz və müstəqil məhkəmənin insan hüquqlarının məhkəmə proseslərindən əvvəl, ərzində və sonradan hüquqi təminat altına alınmasında və müdafiə olunmasında mühüm rol oynadığını qəbul edərək,

Vəkillərin ədalətli məhkəmə araşdırması hüququnun təmin olunmasında və cinayət-məhkəmə sistemində digər insan hüquqlarının qorunmasında mühüm rol oynadığını qəbul edərək,

İşgəncəyə qarşı ictimia qaydada qtiraz etmənin əhəmiyyətini vurğulayaraq və işgəncə və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftar, yaxud cəzanın bütün növlərinin qadağa olunduğunu və hər zaman və hər yerdə qadağan olunacağını, ona heç vaxt bəraət qazandırılmayacağını təkrarlayaraq, işgəncənin qarşısının alınması məqsədilə müdafiə prosedurlarının gücləndirilməsi, eyni zamanda işgəncə əməllərinə dair cəzasızlığın önlənməsi yolu ilə onu hazırlayanların cəzalandırılmasının zəruriliyini vurğulayaraq və iştirakçı dövlətləri İşgəncə əlehinə Konvensiyanın seçimli protokolunun imzalanması və ratifikasiya edilməsini tez bir zamanda nəzərə almağa çağıraraq,

Qərara gəlir:

- 2006-cı ildə cinayət-məhkəmə sistemlərində qanunun aliliyi məsələlərinə diqqətin artırılmaq və izləmək, eyni zamanda iştirakçı dövlətlərin təşviq edilməsi yolu ilə mövcud öhdəlikləri inkişaf etdirmək, eyni zamanda DTİHB-in təcrübəsini cəlb etmək və arzuolunmaz təkrarçşılığın qarşısının alınması məqsədilə digər müvafiq beynəlxalq təşkilatlarla sız əlaqədə olmaq;

DTİHB və ATƏT-in digər müvafiq qurumlarına tapşırır:

- Cinayət-məhkəmə sistemlərini təkmilləşdirmək məqsədilə iştirakçı dövlətlərin uğurlu nümunələri, təcrübələri və nümunəvi praktikaları biri digəri ilə bölüşməsinə köməklik göstərilməsi;

- İştirakçı dövlətlərin müraciətlərinə əsasən müştərilərinin hüquqlarını qorumaq və müdafiə etmək üçün vəkillərin institusional qabiliyyətlərinin möhkəmləndirilməsinə köməklik göstərilməsi.

**2006 –CI IL BRÜSSEL GÖRÜŞÜ** (Cinayət-məhkəmə sistemlərinə dair Brüssel bəyannaməsi)

Biz, Nazirlər Şurasının üzvləri, xüsusilə də Helsinki Yekun Aktı (1975), Vyana Yekun Sənədi (1989), Kopenhagen Sənədi (1990), Yeni Avropa naminə Paris Xartiyası (1990), Moskva Sənədi (1991), Budapeşt Sənədi (1994) və Avropada Təhlükəsizlik naminə Xartiyada (1999) qeyd olunan, cinayət-məhkəmə idarəetməsinə dair öhdəlikləri yenidən təsdiq edirik.

Biz Nazirlər Şurasının transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizə haqqında 3/05 saylı və cinayət-məhkəmə sistemlərində insan hüquqlarının və qanunun aliliyinin qorunmasına dair 12/05 saylı (Lyublyana, 2005-ci il) qərarlarını təsdiq edirik.

Biz daha sonra Cinayət-məhkəmə proseslərində Qanunun aliliyi və hüquqi təminatların dəstəklənməsinə dair İnsan ölçüsü Seminarının (Varşava, 2006-cı ilin may ayı) gəldiyi nəticələri təsdiq edirik.

Biz eyni zamanda Ümumbəşəri İnsan Hüquqları Bəyannaməsi, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və İşgəncə və digər qəddar, qeyri-insani və ya alçaldıcı rəftar, yaxud cəzaya qarşı BMT Konvensiyası da daxil olmaqla müvafiq BMT sənədlərini təsdiq edirik.

Biz məhkəmələrin müstəqilliyinin təmin olunması üçün iştirakçı dövlətlərinin öhdəliklərini təsdiq edirik.

Biz təsdiq edirik ki, bu sənəddəki heç nə iştirakçı dövlətlərin beynəlxalq hüquqa əsasən mövcud öhdəlikləri və məsuliyyətlərini zəiflədə və parçalaya bilməz, biz eyni zamanda hər bir iştirakçı dövlətin onları özünün hüquqi adətlərinə uyğun olaraq milli qanunvericiliyində tətbiq etmək üçün müvafiq metodlar məyyən etməsini məmnunluqla qarşılayırıq.

Biz hesab edirik ki:

- Müstəqil məhkəmə qanunun aliliyinin ilkin şərtidir və ədalətli məhkəmənin əsas təminatçısı kimi çıxış edir;

- Qərəzsizlik məhkəmə hakimiyyətinin müvafiq icrası üçün mühümdür;

- Bütövlük məhkəmə hakimiyyətinin müvafiq icrası üçün mühümdür;

- Dürüstlük və dürüstlük görüntüsü hakimin bütün fəaliyyətinin icrası üçün mühümdür;

- Məhkəmə qarşısında hər kəslə bərabər rəftar edilməsinin təminat altına alınması məhkəmə hakimiyyətinin düzgün fəaliyyəti üçün mühümdür;

- Qabiliyyət və çalışqanlıq məhkəmə hakimiyyətinin düzgün fəaliyyətinin ilkin şərtləridir.

Biz hesab edirik ki:

- Prokurorlar düzgün və bacarıqlı, müvafiq hazırlıqlı və ixtisaslı şəxslər olmalıdır;

- Prokurorlar hər zaman öz peşələrinin şərəf və ləyaqətini qorumalı və qanunun aliliyinə hörmətlə yanaşmalıdırlar;

- Prokurorluq orqanı məhkəmə funksiyalarından qəti surətdə ayrı qalmalı və prokurorlar hakimlərin müstəqilliyinə və qərəzsizliyə hörmətlə yanaşmalıdırlar;

Prokurorlar qanunvericiliyə uyğun olaraq öz vəzifələrini ədalətli, ardıcıl və operativ şəkildə icra etməli, insan ləyaqətinə hörmətlə yanaşmalı və qorumalı, hüquqi təminatların təmin olunmasına və cinayət-məhkəmə sisteminin asan fəaliyyətinə xidmət edən insan hüquqlarına dəstək verməlidir.

Biz hesab edirik ki:

- Hüquq-mühafizə orqanları ictimaiyyətə xidmət etmək və və hamını qanunsuz hərəkətlərlərdən müdafiə etməklə, qanunvericilik tərəfindən onlara verilmiş, peşələrinin yüksək səviyyədə məsuliyyət tələb etdiyi vəzifələri hər zaman yerinə yetirməlidirlər;

- Vəzifələrini yerinə yetirərkən hüquq-mühafizə orqanları insan ləyaqətinə hörmətlə yanaşmalı və müdafiə etməli, hamının insan hüquqlarını qorumalı və mühafizə etməlidir;

- Hüquq-mühafizə orqanlarının gücü yalnız zəruri və öz missiyalarını yerinə yetirmələrinə mütənasib olaraq, ictimaiyyətin təhlükəsizliyini təmin etmək məqsədilə tətbiq edə bilərlər;

- Hüquq-mühafizə orqanları, dövlət vəzifəli şəxsləri qrupu və ya rəsmi vəzifəli fəaliyyət göstərən digər şəxslər qrupunun üzvlər kimi hər hansı işgəncə və ya digər qəddar, qeyri insani və ya alçaldıcı hərəkət, yaxud cəzaya yol verməməli, qızışdırmamalı, təşviq etməməli və güzəştə getməməlidir;

- Heç bir hüquq-mühafiz orqanı vəzifəli şəxsi işgəncə və ya digər qəddar, qeyri insani və ya alçaldıcı hərəkət, yaxud cəzanın verilməsinə səbəb olacaq əmrləri törətməkdən və ört-basdır etməkdən boyun qaçırdığına görə cəzalandırıla bilməz;

- Hüquq-mühafizə orqanlarının vəzifəli şəxsləri nəzarətləri altında olan şəxslərin sağlamlıqları haqqında xəbərdar və diqqətcil olmalı, xüsusilə də lazım gəldikdə tibbi yardımın föstərilməsi üçün təcili tədbirlər görməlidirlər;

Biz hesab edirik ki:

- Vəkillərin dövlət orqanları və ya ictimiayyət tərəfindən diskriminasiya və qeyri-qanuni müdaxiləyə məruz qalmadan peşələrini yerinə yetirmək azadlığının qorunması və təşviq edilməsi məqsədilə bütün zəruri tədbirlər görülməlidir;

- Vəkil kimi fəaliyyət göstərmək üçün icazənin verilməsinə və ya bu peşəyə qoşulmağa dair qərar müstəqil qurum tərəfindən verilməlidir. Bu kimi qərarlara müstəqil qurum tərəfindən qəbul edilib-edilmədiklərindən asılı olmayaraq müstəqil və qərəzsiz məhkəmə orqanı tərəfindən baxıla bilməlidir;

- Vəkillər özlərinin peşə standartlarına uyğun olaraq fəaliyyət föstərmələri səbəbindən hər hansı bir cəza və ya təzyiqlə üzləşməməli və ya təhdid edilməməlidirlər;

- Vəkillərin təklikdə məsləhətləşmələr aparmaları və öz müştərilərini müəyyən peşə standartlarına müvafiq olaraq təbsil edə bilmələri üçün, xüsusilə də azadlıqdan məhrum edilmiş şəxslər olmaqla, öz müştəriləri ilə əlaqə saxlamaq imkanları olmalıdır;

- Vəkil-müştəri münasibətlərinin məxfiliyinə hörmətlə yanaşmanı təmin etmək məqsədilə bütün zəruri addımlar atılmalıdır. Bu prinsipə istisnalara yalnız qanunun aliliyinə uyğun gəldiyi halda icazə verilə bilər;

- Vəkillərin iştirak etmək səlahiyyətlərinin olduğu məhkəmələrə çıxış imkanlarından imtina edilə bilməz və onların peşə standartlarına uyğun olaraq öz müştərilərinin maraqlarını müdafiə edərkən üçün bütün sübutlar və qeydlərə çıxışları olmalıdır;

Biz hesab edirik ki, nəzarətdə saxlama qərarlarının icrası və məhbuslarla davranış təhlükəsizlik və nizam-intizam qaydalarını nzəər almalı, insan ləyaqətinə toxunmayan və məhbuslara, cəmiyyətə yenidən inteqrasiya oluna bilmələri üçün anlamlı iş fəaliyyətləri və müvafiq islahedici proqramlar təklif edən həbsxana şəraitinin təmin edilməldir.

Biz iştirakçı dövlətləri öz cinayət-məhkəmə sistemlərinin ədalətli və səmərəli fəaliyyətlərinin təmin edilməsi məqsədilə öz öhdəlik və vəzifələrini bütövlüklə icra etməyə çağırırıq.

**2008-CI IL HELSINKI GÖRÜŞÜ** (ATƏT ərazisində Qanunun aliliyinin sonrakı inkişafı)

Nazirlər Şurası,

ATƏT-in iştirakçı dövlətlərinin qanunun aliliyinə və 1975-ci il Helsinki Yekun Aktının iştirakçı dövlətlərin arasındakı münasibətlərin idarə olunması prinsiplərinə, eyni zamanda beynəlxalq hüquqa əsasən öhdəliklərinin vicdanla yerinə yetirilməsinə dair öhdəliklərini yenidən təsdiq edərək və ATƏT-in iştirakçı dövlətlərinin bu prinsiplərə ciddi hörmətlə yanaşmalarına dair qərarlıqlarını təkrarlayaraq,

ATƏT-in 1989-cu ildə Vyana, 1990-cı ildə Kopenhagen, 1991-ci ildə Moskva, 1994-cü ildə Budapeşt və 1999-cu ildə İstanbulda qəbul etdiyi sənədlər və Lyublyanada Naizrlər Şurasının cinayət-məhkəmə sistemlərində insan hüquqlarının və qanunun aliliyinin dəstəklənməsinə dair 12/05 saylı qərarını xatırladaraq,

Eyni zamanda İnsan Hüquqlarına dair Ümumbəşəri Bəyannaməni xatırladaraq və Mülki və Siyasi hüquqlara dair Beynəlxalq Paktı nəzərə alaraq,

Eyni zamanda qanunun aliliyinə ümumbəşəri sədaqət və həm milli, həm də beynəlxalq səviyyədə tətbiqinə dair zərurəti, qanunun aliliyi və beynəlxalq hüquqa əsaslanan beynəlxalq nizama dair öhdəlikləri təsdiq edən digər BMT sənədlərini xatırladaraq,

Bir-biri ilə bağlı və qarşılıqlı olaraq bir-birini tamamlayan insan hüquqları, qanunun aliliyi və demokratiyaya verdiyimiz əhəmiyyəti qeyd edərək,

İnsan hüquqları və demokratiya, təhlükəsizlik və sabitlik, yaxşı idarəetmə, qarşılıqlı iqtisadi və ticarət əlaqələri, investisiya təhlükəsizliyi və münasib biznes iqliminə hörmətlə yanaşılmasının təmin edilməsi üçün qanunun aliliyinin çarpaz-ölçülü məsələ kimi əhəmiyyətini, eyni zamanda korrupsiya əlehinə mübarizə, mütəşəkkil cinayətkarlıq və narkotik maddələr və silahlar da daxil olmaqla qaçaqmalçılığın bütün növləri, eyni zamanda insan qaçaqmalçılığındakı rolunu, bununla belə, iştirakçı dövlətlərdə siyasi, iqtisadi və ekoloji inkişafa əsas kimi xidmətlərini qeyd edərək,

Eyni zamanda siyasi-hərbi sferada ATƏT qərarlarının və sənədlərinin tətbiqində qanunun aliliyinin əhəmiyyətini qeyd edərək,

Xüsusilə də Katiblik, DTİHB və ATƏT-in sahə əməliyyatlarıda daxil olmaqla, ATƏT-in müvafiq icra orqanlarının iştirakçı dövlətlərdə qanunun aliliyinin artırılmasına köməklik göstərilməsi məqsədilə qanunun aliliyinə dair fəaliyyətlərini nəzərə alaraq, və eyni zamanda ATƏT-in Parlament Assambleyasının ATƏT zonasında qanunun aliliyinə görmətlə yanaşılmasının təşviq edilməsində rolunu nəzərə alaraq,

Qanunun aliliyinə dair ATƏTin müvafiq tədbirlərini, xüsusilə də Konstitusiya məhkəməsi məsələsinə dair 2008-ci il İnsan ölçüsü seminarı və eyni zamanda Əlavə insan ölçüsü görüşlərini nəzərə alaraq,

İştirakçı dövlətlərin qanunun aliliyinə dair davam edən və nəzərdə tutulan qarşılıqlı fəaliyyətlərini nəzərə alaraq,

ATƏT-in hüquqi şəxs statusu, hüquq qabiliyyəti, imtiyazlar və immunitetlərlə təmin olunmasının və beləliklə də ATƏT üçün hüquqi çərçivənin təkmilləşdirilməsinin əhəmiyyətini qeyd edərək,

1. ATƏT-in iştirakçı dövlətlərini beynəlxalq hüquqa əsasən daşıdıqları vəzifələrə və özlərinin qanunvericilik, icra və məhkəmə orqanlarının bütün aspektləri də daxil olmaqla, həm milli, həm də beynəlxalq səviyyədə qanunun aliliyinə dair ATƏT öhdəliklərinə hörmətlə yanaşmağa çağırır;

2. İştirakçı dövlətləri lazım gəldikdə qanunun aliliyinə dair ATƏT layihələrinə və proqramlarına dəstək verməyə çağırır;

3. ATƏT-in müvafiq icra orqanlarınımandatlarına uyğun olaraq və mövcud resurslar çərçivəsində, müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində, öz tələbləri əsasında iştirakçı dövlətlərə qanunun aliliyinin möhkəmləndirilməsində köməklik göstərilməsi üçün daha sonra əməkdaşlığın müəyyən və tətbiqi edilməsini təşviq edir;

4. İştirakçı dövlətləri zəruri olduqda ATƏT-in icra qurumlarının mandatlarına uyğun olaraq və mövcud resurslar çərçivəsində köməyi ilə məlumat və nümunəvi təcrübələri bölüşmək və qanunun aliliyinin, eyni zamanda aşağıdakı sahələrdə möhkəmləndirilməsi səylərinin davam etdirilməsi və möhkəmlərndirilməsini təşviq edir:

- Məhkəmənin müstəqilliyi, ədliyyə sisteminin səmərli idarə olunması, ədalətli məhkəmə araşdırması hüququ, məhkəməyə müraciət etmə hüququ, düvlət müəssisə və vəzifəli şəxslərinin hesabatlığı, dövlət administrasiyaında qanunun aliliyinə hörmətlə yanaşılması, vəkillə təmin olunma hüququ və həbsdəki insanlarıninsan hüquqlarına hörmətlə yanaşılması;

- ATƏT zonasında qanunun aliliyinin möhkəmləndirilməsinin vacib elementi kimi beynəlxalq hüquqa əsasən öhdəliklərə hörmətlə yanaşılması;

- Münaqişələrin sülh yolun ilə həlli prinispinə sədaqət;

- Beynəlxalq hüquqi vəzifələr və ATƏT öhdəliklərinə əsasən terrorizmlə mübarizədə qanunun aliliyinə və insan hüquqlarına hörmətlə yanaşılması;

- İşgəncə və digər qəddar, qeyri insani və ya alçaldıcı hərəkət, yaxud cəzanın eyni zamanda müvafiq hökumətlərarası qurumlarla əməkdaşlıq vasitəsilə qarşısının alınması;

- İştirakçı dövlətlərdə və onların arasında iqtisadi fəaliyyətlər, ticarət və investisiyalara şərait yaradılması məqsədilə səmərəli qanunvericilik, icra və məhkəmə çərçivəsi;

- ATƏT zonasında təbii ətraf mühitə dair qanunun aliliyinə hörmətlə yanaşılması;

- Məhkəmələr, hüquq-mühafizə orqanları, polis və penitensiar sistemlərdə qanunun aliliyi məsələlərinə dair məlumatlığın artırılması və eyni zamanda hüquq peşəsi ilə məşğul olan şəxslərə təlimlərin keçirilməsi;

- ATƏT zonasında müxtəlif iştirakçı dövlətlərdən olan hüquq peşəsi ilə məşğul olan şəxslər, akademiklər və hüquq tələbələri üçün qanunin aliliyinə dair təhsil, eyni zamanda qarşılıqlı əlaqə və mübadilə imkanları;

- İştirakçı dövlətlərin konstitusiya məhkəmələrinin və ya müqayisəyə gələ bilən institutlarının qanunun aliliyi, demokratiya və insan hüquqları prinsiplərinə bütün dövlət müəssisələrində əməl olunmasının təmin olunmasında rolu;

- Səmərəli hüquqi vasitələrin və zərurət yarandıqda onlara çıxışın təmin olunması;

- Cinayət-məhkəmə sistemində qanunun aliliyi standartlarına və təcrübələrinə əməl olunması;

- Korrupsiya əlehinə mübarizə;

5. ATƏT-in müvafiq icra orqanlarına iştirakçı dövlətlərlə sıx əməkdaşlıq şəraitində və mövcud resurslar çərçivəsində 2009-cu ildə iştirakçı dövlətlər arasında qanunun aliliyinə nümunəvi təcrübələrin mübadiləsi üçün meydan ola biləcək, qanunun aliliyinə istiqamətlənmiş seminarın təşkil edilməsini tapşırır.

**ASTANA 2010** (Astana bəyannaməsi)

6. […] Biz vətəndaş cəmiyyəti və müstəqil mətbuatın azad və ədalətli seçkilərin keçirilməsi və qanunun aliliyi də daxil olmaqla insan hüquqları, əsas azadlıqlar və demokratiyaya tam hörmətin təmin edilməsində əhəmiyyətli rolunu qiymətləndiririk.

7. […] İnsan hüquqlarına, əsaz azadlıqlara, demokratiya və qanunun aliliyinə hörmət qorunmalı və gücləndirilməlidir. […]